

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## YAP İdarə Heyətinin iclası keçirilib



5

№ 232 (7157)

SƏS

17 dekabr 2024-cü il.
Qiymәti 60 qәpik

## Azərbaycan multikulturalizm ənənələrinə sadiqdir



2

# Qərbin ZOMBİLƏŞDİRMƏ SİYASƏTİ




3

## Sevinc Osmanqızı Əli Kərimlini bələdiyyə seçkilərinə qatılmadığına görə tənqid etdi



10

## Bıçaqlayan da bizdəndir, bıçaqlanan da



12

## Övladımızı telefon asılılığından necə xilas edək?



16

## Azərbaycan caz musiqisinin əfsanəsi



7

## Körpələrinizdən ana südünü əsirgəməyin



11

# Azərbaycan multikulturalizm ənənələrinə sadiqdir

## *Prezident Ilham Əliyev Müqəddəs Taxt-Tacın Dövlətlər və Beynəlxalq Təşkilatlarla əlaqələr üzrə katibini qəbul edib*



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 16-da Müqəddəs Taxt-Tacın Dövlətlər və Beynəlxalq Təşkilatlarla əlaqələr üzrə katibi arxiyepiskop Paul Riçard Qallageri qəbul edib. AZƏRTAC xəbər verir ki, arxiyepiskop Paul Riçard Qallager Roma Papası Fransiskin salamlarını dövlətimizin başçısına çatdırdı. Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Roma Papasına çatdırmağı xahiş etdi. Roma Papasının sonuncu dəfə 2016-cı ildə Azərbaycana səfər etdiyini deyən dövlətimizin başçısı həmin vaxt və özünün 2020-ci ildə Vatikana səfəri çərçivəsində Roma Papası ilə görüşlərini məmnunluqla xatırladı, Roma Papasını ölkəmizə səfərə dəvət etdi.***

Səfərinin əsas məqsədinin Azərbaycanda II İoann Pavelin şərəfinə tikiləcək katolik kilsəsinin yerləşəcəyi ərazinin təqdis edilməsi olduğunu deyən qonaq bu kilsənin inşası üçün ərazinin ayrılmasına və göstərilən dəstəyə görə Prezident İlham Əliyevə dərin təşəkkürünü bildirdi, bunun tərəfdaşlığın nümunəsi olduğunu və ölkəmizdəki katolik icması tərəfindən çox böyük rəğbətlə qarşılandığını vurğuladı. Dövlətimizin başçısı yeni kilsənin inşasına başlanmasından məmnunluğunu ifadə edərək, arxiyepiskop Paul Riçard Qallagerin ölkəmizə səfərinin və kilsənin tikiləcəyi ərazini təqdis etməsinin Müqəddəs Taxt-Tacın Azərbaycanın katolik icması ilə əlaqələrə verdiyi önəmi nümayiş etdirdiyini dedi. Prezident İlham Əliyev yeni tikiləcək kilsənin əlaqələrimizin yaxşı rəmzi olacağını vurğuladı.

Qonaq Azərbaycanda müxtəlif dini icmaların nümayəndələrinin sülh və əmin-amanlıq şəraitində yaşamasında Ümummilli Lider Heydər Əliyevin və Prezident İlham Əliyevin rolunu xüsusi olaraq qeyd etdi. Arxiyepiskop Paul Riçard Qallager vurğuladı ki, müxtəlif dinlərin və konfessiyaların nümayəndələrinə bu cür hörmət göstərilməsi, harmonik şəraitin yaradılması Azərbaycanın və xalqımızın fərqləndirici xüsusiyyətlərindən biridir.

Dövlətimizin başçısı Azərbaycanın multikulturalizm ənənələrini qeyd edərək, ölkəmizdə müxtəlif xalqların və konfessiyaların nümayəndələrinin daim sülh, əmin-amanlıq və harmoniya şəraitində yaşadığını vurğuladı.

Arxiyepiskop Paul Riçard Qallager ölkəmizdəki katolik icmasının nümayəndələrinin Azərbaycan rəsmiləri və cəmiyyəti ilə rahat şəraitdə münasibətlərinin olmasından məmnunluğunu bildirdi və qeyd etdi ki, bu da Azərbaycana nüfuz gətirən amillərdən biridir. Qonaq ölkəmizə səfəri çərçivəsində çox səmərəli görüşlər keçirdiyini dedi.

Prezident İlham Əliyev bütün bunların Azərbaycan üçün fəxr hissi doğurduğunu bildirdi, ölkəmizdə multikulturalizmin və çoxmillətliliyin daim təmin olunmasını məmnunluqla qeyd etdi, bunu dövlət siyasəti ilə xalqımızın ənənəvi yaşayış tərzinin vəhdəti olduğunu dedi. Dövlətimizin başçısı qeyd etdi ki, müxtəlif millətlərin, dinlərin nümayəndələrinin ölkəmizdə sülh, dostluq və mehriban şəraitdə yaşaması Azərbaycana əlavə güc verir, sabitliyin və cəmiyyətdə ahəngdarlığın təmin olunmasına xidmət edir.

Azərbaycanın, həmçinin beynəlxalq səviyyədə dinlər və mədəniyyətlərarası dialoq prosesinə və bu sahədə əməkdaşlığa böyük töhfə verdiyini deyən dövlətimizin başçısı ölkəmizdə mütəmadi olaraq mədəniyyətlər və konfessiyalararası dialoqa həsr edilən beynəlxalq tədbirlərin keçirildiyini məmnunluqla xatırladı.

Qonaq COP29-un uğurla keçirilməsi münasibətilə təbriklərini çatdırdı.

Prezident İlham Əliyev bildirdi ki, COP29 ərəfəsində dünya dini liderlərinin sammiti də keçirilib və orada dünya dini liderləri tərəfindən də iqlim dəyişmələri ilə əlaqədar beynəlxalq ictimaiyyətə müraciət olunub. COP29 zamanı Azərbaycanın müxtəlif tərəflər arasında körpülərin yaradılmasına çalışdığını deyən dövlətimizin başçısı bu tədbir çərçivəsində aparılan danışıqlar prosesinin uğurlu nəticələr verdiyini xüsusilə qeyd etdi. Söhbət zamanı regional məsələlər barədə fikir mübadiləsi aparıldı.

Azərbaycan Prezidenti Cənubi Qafqaz regionunda sülhün və sabitliyin təmin olunması istiqamətində səylərini bundan sonra da davam etdirəcəyini vurğuladı. Görüşdə Yaxın Şərqdəki vəziyyətə toxunuldu. Prezident İlham Əliyev Əsəd rejiminin çökməsindən sonra qardaş Türkiyə ilə məsləhətləşərək Suriya xalqının üzləşdiyi humanitar problemlərin həllinə dəstək verməyə hazır olduğunu bir daha qeyd etdi. Arxiyepiskop Paul Riçard Qallager dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim etdi.

# "The Jerusalem Post": Ermənilər konstitusiyalarına yenidən baxmalıdırlar




Ermənilər Azərbaycanın milli suverenliyinə hörmətlə yanaşmaq üçün konstitusiyalarına yenidən baxmalıdırlar. AZƏRTAC xəbər verir ki, bu barədə İsrailin ərəb dünyası və İran üzrə tanınmış eksperti, İsrail Müdafiə Qüvvələrinin Kəşfiyyat Korpusunun sabiq polkovnik-leytenantı, bu ölkənin nüfuzlu Bar-İlan Universitetinin şərqşünaslıq elmləri üzrə professoru və universitetin Yaxın Şərq və İslam Tədqiqatları Mərkəzinin direktoru, Begin-Sadat Strateji Araşdırmalar Mərkəzinin tədqiqatçısı doktor Mordexay Kedar dünyanın ən nüfuzlu nəşrlərindən "The Jerusalem Post"da dərc olunmuş "Türkiyə İranın yerinə yeni regional güc olacaqmı?" sərlövhəli məqaləsində yazıb.

Yazıda Rusiyanın dəstəyindən məhrum olan Ermənistanın ölkəmizlə sülh sazişi perspektivi fonunda Tehranın da dəstəyindən uzaqlaşaraq Azərbaycan və Türkiyə ilə normal qonşuluq münasibətləri yaratması alternativsiz variant kimi qiymətləndirilib. Hadisələrin bu istiqamətdə cərəyan etməsinin bölgədə Tehran tərəfindən təşviq olunan dini radikalizmi xeyli zəiflədəcəyi diqqətə çatdırılıb. Qeyd olunub ki, nəzarətində olan hər bir ərazidə dünyəvi qanunun aliliyini təmin edən Azərbaycan bu günədək uğurlu şəkildə dini radikalizmin yayılmasının qarşısını almaqla bölgədə dünyəvi dövlətçilik mühitinin bərqərar olmasına mühüm töhfə verib.

İsrailli professor Türkiyənin strateji müttəfiqi olan Azərbaycanın Vətən müharibəsində Qələbəsinin bölgəni gərginlikdə saxlayan qüvvələrin zəifləməsinə, əvəzində Türk alyansının təsirinin artmasına rəvac verdiyinə diqqət çəkib. Məqalədə BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinə məhəl qoymayaraq 30 il ərzində Qarabağı və Azərbaycanın 7 rayonunu qanunsuz işğal altında saxlayan Ermənistanın sözügedən təcavüzü nəticəsində bir milyona yaxın soydaşımızın məcburi köçkünə çevrildiyi də xatırladılıb. Müəllif bütün qeyd olunanların fonunda ermənilərin Azərbaycanın milli suverenliyinə hörmətlə yanaşması üçün onların öz konstitusiyalarını yenidən nəzərdən keçirməsinin zəruriliyini diqqətə çatdırıb. Məqaləni ətraflı şəkildə linkə keçid etməklə oxumaq mümkündür.

# "Bu fakt erməni cəmiyyətində dərin kök salmış Azərbaycanofobiyanın bariz nümunəsidir"

***Qərbi Azərbaycan İcması bəyanat yayıb. Bəyanatda deyilir ki, BMT-nin İrqi ayrı-seçkiliyin aradan qaldırılması üzrə Komitəsində Ermənistanın dövri məruzəsinə dair baxışı zamanı BMT ekspertləri tərəfindən azərbaycanlıların Ermənistandan deportasiya edilməsi və Ermənistan ərazisində Azərbaycan xalqına məxsus mədəni irsin dağıdılması ilə bağlı məqamların qabardılması təqdirəlayiqdir.***

Bildirilib ki, Ermənistan nümayəndə heyətinin bu suallara dözümsüz münasibəti, bizim üçün əziz olan Göy məscidin Azərbaycan xalqına mənsubluğunu bir daha danması erməni cəmiyyətində dərin kök salmış Azərbaycanofobiyanın, qondarma "etnik müstəsnalıq" xəstəliyinin bariz nümunəsidir. Bu, eyni zamanda Ermənistanın iki ölkə arasında münasibətlərin normallaşdırılması barədə gəlişigözəl sözləri ilə tam ziddiyyət təşkil edir.

"Ermənistanın işğal dönəmində Yuxarı Gövhər ağa məscidinin Azərbaycan xalqına məxsusluğunu inkar etməsi siyasəti tam

## BƏYANAT

uğursuzluğa düçar olduğu kimi, Göy Məscidin də Azərbaycan mənşəyini danmasının heç bir perspektivi yoxdur. Nə Ermənistan rəsmilərinin BMT kürsülərindən isterik cavabları, nə də Fransanın Ermənistandakı irqçi səfirinin gülünc tvitləri, "atmaca"ları Azərbaycan xalqının qədim tarixini, zəngin mədəni irsini, izini silə bilməz.

Komitənin Ermənistana "Azərbaycan və Ermənistan kontekstində mediada və internet məkanında rəsmilərin və siyasətçilərin nifrət dolu çıxışlarından narahatlıq ifadə etməsi" ilə bağlı verdiyi tövsiyəsini Ermənistanın azərbaycanlılara qarşı yürütdüyü irqçi siyasətin BMT tərəfindən qeydə alınması kimi qiymətləndiririk. Bu xüsusda, BMT ekspertlərini Ermənistanda Azərbaycanofobiya problemini diqqətdə saxlamağa, bu ölkədə medianı, internet məkanını daim monitorinq etməyə çağırırıq. Biz, eyni zamanda BMT-nin digər aidiyyəti qurumlarını Ermənistanla bağlı müzakirələr zamanı Qərbi azərbaycanlıların pozulmuş hüquqlarına toxunmağa və bu ədalətsizliklərin aradan qaldırılması üçün Ermənistana tövsiyələr verməyə dəvət edirik", - deyə bəyanatda qeyd edilib.

# Qərbin ZOMBİLƏŞDİRMƏ SİYASƏTİ

***Gürcü kilsəsi tərəfindən Qərbyönümlü radikallar yenidən qınanılmaqdadırlar. Əslində, belə də olmalıdır, çünki Qərbin nəyə nail olmaq istədiyi bəllidir. Bəlli olan odur ki, Qərb heç də gürcülərin milli maraqlarını nəzərə almır, əksinə, öz maraqları ön planda-dır deyə Gürcüstanı uçuruma doğru aparmaq niyyətində israrlıdır. Buna görə təkcə kilsə deyil, bütövlükdə Gürcüstan ictimaiyyəti Qərbin oyunlarına qarşı çıxmalıdır və Qərbyönümlü müxalifətin, özü də zombiləşmiş müxalifətin maqiyaya, sehrbazlığa bənzər təsirlərin əsiri olmasına son qoymalıdır.***

### Hərbiləşdirilmiş, zombiləşdirilmiş qruplar tərəfindən birbaşa dövlətə "meydan oxumaq" dövlət çevrilişi ehtimalı deməkdir

Doğrudur, hüquq-mühafizə orqanları Tbilisidə inzibati binaları uğurla qorumağa və qadağan olunmuş "toplantıları", yəni, nümayişləri, etirazları effektiv şəkildə dağıtmağa davam edirlər. Ümumiyyətlə, belə də zənn edilir ki, elə bil vəziyyət bir növ, nəzarət altındadır. Amma buna baxmayaraq, Gürcüstanda dövlət çevrilişi ehtimalı hələ də mövcuddur deyə bir qənaətdəyik. Ona görə belə bir qənaətdəyik ki, qondarma "dinc etirazçılar" nəinki üsyanı davam etdirirlər, həm də artıq, terror yolunu da tuturlar. İndi onların adını daha bundan sonra "dinc" qoymaq da qətiyyən mümkün deyil, çünki bütövlükdə bütün Gürcüstanın dincliyini pozmaqdadırlar. Etirazlar dağıdıcı xarakter alırsa, Qərb bunun adını "dinc etirazlar" qoymaqda belə həyasızlıq edir və onların, həmin o həyasızlıq edən "sehrbazların" da təsiri altında olan, zombiləşmişlər də reallığın nədən ibarət olduğunun qətiyyən fərqində belə deyillər. Fərqində belə deyillər ki, sanki bir maqiya ilə bir çoxları əməlli-başlı çaşdırılıblar və gözləri də elə bağlanılıb ki, reallıqları da görə bilmirlər.

Diqqətə çatdıraq ki, Qərbin "oyuncaqları" əvvəllər polisə "Molotov kokteyli" ataraq "atəşfəşanlıq" edirdilərsə, indi artıq açıq şəkildə idmançılardan və xırda cinayətkarlardan ibarət öz dəstələrini yaradaraq, fəxrlə "özünümüdafiə dəstələri" də adlandırırlar. Bundan da nə özləri, nə də "ağaları" qətiyyən utanmırlar. Sözsüz ki, bu, prosesin nədən xəbər verdiyini bilmək, mümkün hadisələri öncədən proqnozlaşdırmaq üçün əsas verir və yetərlidir də. Çünki hər şey Avromaydanın timsalında və bənzərində, özü də eyni şəkildə edilir. Hətta zorakılığın dərəcəsi 11 il əvvəl Kiyevlə müqayisədə çox daha sürətlə artır. İğtişaşçılar "küçələrdə patrul edəcəklərini" və "mitinq iştirakçılarını qoruyacaqlarını" artıq çoxdan elan ediblər ki, bu da qeyri-qanuni hərbiləşdirilmiş qruplar tərəfindən birbaşa dövlətə "meydan oxumaq" deməkdir. Əlbəttə ki, bütün bunlar istənilən ölkənin qanunları ilə ziddiyyət təşkil edir və ciddi şəkildə cəzalandırılma da tələb edir. İstənilən halda, zombiləşmiş şəkildə hansısa qüvvələrin əlində alət olmaq qəbuledilən deyil və hansı maqiya, hansı sehrbazlıq tətbiq edilməsindən asılı olmayaraq, dövlətin qanunları, milli maraqlar gözlənilməlidir.

### Ukraynalıların faciəsindən dərs alan kimi görünmürlər və Ukrayna ilə əlaqədar baş verənlər qətiyyən onlara təsirli olmayıbmış

Qondarma "özünümüdafiəçilər" sadəlövhcəsinə güman edirlər ki, guya tezliklə Gürcüstanı idarə edəcək ən güclü "canavar" hesab olunmaqdadırlar. Ən azından öz ağalarının gözündə məhz belə göründükləri qənaətindədirlər. Əslində isə, onlar canavar deyil, bir "qoyun" kimi görünürlər, çünki başa da düşə bilmirlər ki, gürcü guya gözəgörünməz edərək fəlakətlərdən qoruyacaq. Amma başa düşə, dərk edə və görə də bilmirlər ki, bütün o sadalananlar və onların köməyi ilə də qorunmaq mümkün olsaydı ukraynalılar "faydalana" bilərdilər.

### Söhbət təkcə Gürcüstandan getmir və məsələnin kökündə ümumiyyətlə, Cənubi Qafqaz, regionun özü durur

Bəli, elə də böyük dövlət olmamasına baxmayaraq, Gürcüstan bir Cənubi Qafqaz ölkəsi kimi məhz Qərb üçün strateji əhəmiyyət kəsb edir. Elə buna görə də Qərb liderlərinin həyasızcasına və açıq şəkildə dediyi kimi, Gürcüstanı onlar belə asanlıqla buraxmaq fikrində deyillər. Qeyd olunduğu kimi, söhbət təkcə Gürcüstandan getmir və məsələnin kökündə ümumiyyətlə, regionun özü durur. Qərb üçün bütövlükdə Cənubi Qafqaz çox böyük maraq kəsb edir. İndi artıq "Maydanı" qalib gəlsə, onları çox acınacaqlı aqibət gözləyir. Başa da düşə bilmirlər ki, indi "lider" saydıqları şəxsən onları zorla Rusiya ilə müharibənin "ət kombinatına" qovacaqlar. "Yüz nəsihətdən bir müsibət daha təsirlidir", zərb məsəlində deyildiyi kimi, deyəsən, başlarına həmin müsibət gəlməyincəyə qədər, ukraynalıların faciəsindən dərs alan deyillər və Ukrayna ilə əlaqədar baş verənlər qətiyyən onlara təsirli olmayıbmış. İndi iki ayağını bir başmağa dirəyənlər ən azından nəsihət alan kimi deyil, müsibət axtaran kimi görünürlər.

Güman edilirdi ki, Qərbin oyuncaqları üçün ukraynalı "qardaşları" əsl "nümunə", yaxud da əsl "təcrübə" olaraq qəbul olunar, amma çox təəssüf, belə olmadı. Bəli, məhz ukraynalı qardaşları da özlərini özünəməxsus şəkildə avromaydanın "yarış atları" hesab edirdilər və onlar da nəinki ölkəni, hətta demək olar ki, bütün dünyanı idarə edəcəklərini düşünürdülər. Məntiqi nəticə isə tamamilə fərqlidir və görürük ki, ukraynalı "özünümüdafiə döyüşçülərinin" çoxu artıq həyatlarını itiriblər. Zorla "səfərbər edilənlər", məhz Donbasda "ət qalası" kimi yerləşdirilənlər çoxdan ölüblər və sağ qalanlar isə hələ də gizlənirlər, hansıki onların yerini heç hərbi komissarlar da bilmirlər. Görəsən Qərbin məhz Gürcüstandakı "oyuncaqları" harada gizlənəcəklərini düşünürlər? Bəlkə də elə zənn edirlər ki, onları oyuna salan həmin o Qərb sehrbazlarının məhz "sehrli papalarının" altında gizlənəcəklər və axmaqcasına elə düşünürlər ki, bu maqiya da onları Cənubi Qafqaza "burun soxmaq" üçün münasib vaxtın gəldiyi qənaətində olanlar özlərini "yuyulmamış qaşıq" kimi ortaya atıblar. Elə Gürcüstanı belə asanlıqla əldən verməmək niyyətinin özü də regionu asasnlıqla əldən verməmək deməkdir.

### Bəd niyyətlərinin baş tutmamasını ictimai və beynəlxalq inamın sarsıdılması kimi qələmə verməyə çalışmaq da zombiləşdirmə siyasətidir

Xatırladaq ki, rəsmi Tbilisinin müstəqil davranışı, iradə nümayiş etdirməsi hətta ABŞ Dövlət Departamentinin rəhbərinin tənqidi bəyanatına da səbəb olub. Məhz 27 oktyabr tarixində Dövlət Departamentinin rəhbəri Blinken, öz "vəkillərinin" uduzduğu ölkədə, yəni Gürcüstanda artıq keçirilən parlament seçkilərinin guya düzgün aparılmadığını deyib. O, həmçinin, hakim partiyanın guya "ictimai resurslardan sui-istifadə etməsindən, səslərin satın alınmasından və seçiciləri qorxutmasından qəzəbləndiyini bildirib. Onun sözlərinə görə, guya sadaladıqları məhz qeyri-bərabər seçkilərə səbəb olub və hətta sən demə, ədalətli nəticənin mümkünlüyünə ictimai və beynəlxalq inamı da sarsıdıbmış... Bir sözlə, keçmiş SSRİ kimi yadda qalan bir ölkənin komsomol iclaslarında səslənən pafoslu fikirlərə bənzər çıxışı öz gülünclüyü ilə diqqəti cəlb edib. Görəsən, ABŞ Dövlət Departamentinin rəhbəri ictimai və beynəlxalq inamı sarsıdır dedikdə nəyi nəzərdə tutur? Bəlkə bunu açıq şəkildə zombi adlandırsa daha düzgün ifadə etmiş olardı? Yaxud, sehrbazlıq, maqiya desəydi bəlkə bir qədər daha münasib olardı? Axı Qərb indi Cənubi Qafqazda özünün zombiləşdirdiyi qrupları "işə salmaq" üçün əldən-ayaqdan gedirsə və buna görə də onların bəd niyyətlərinin baş tutmamasını da ictimai və beynəlxalq inamın sarsıdılması kimi qələmə verməyə çalışırsa, buna elə sehrbazlıq, maqiya deyilməlidir.

### Qərbi qıcıqlandıran Gürcüstan rəhbərliyinin illüziyadan, maqiyaya bənzər təsirlərdən qəti şəkildə imtina etməsi və qərbyönlü müxalifəti qınamasıdır

"Fundamental azadlıqlara xələl gətirən qanunvericiliyi ləğv etməyi, Gürcüstanın Avropa və Avro-Atlantik inteqrasiya məqsədlərini, hökumətdən vətəndaş cəmiyyəti üzvlərinin hüquqlarına hörmət etməyi Ağ Ev həmçinin Gürcüstandan tələb edir", deyə bildirilməsi özü də nəinki gürcü müxalifətinə, rəsmi Tbilisiyə belə təsir variantıdır. Hər halda, görünən odur ki, ümumiyyətlə, Vaşinqton öz agentlərinə, daha dəqiq desək, qondarma "vətəndaş cəmiyyətinin üzvlərinə" toxunulmamasını belə Tbilisidən tələb edir, hansıki bu siyasətin özü də bildiyiniz kimi, guya xristianlığa qarşı mübarizəni ehtiva edir. Əslində, bunun özü də insanların şüuruna təsir etmək variantı, illüziya və maqiya kimi təsir bağışlayır. Bununla belə, Qərbi qıcıqlandıran odur ki, Gürcüstan rəhbərliyi bundan, bu illüziyadan, bu maqiyadan qəti şəkildə imtina etdi və qərbyönlü müxalifəti dəfələrlə qınadı.

"Ölkənin gücünü sarsıtmaq istəyirsənsə, onun əsas qurumlarına hücum etmək lazımdır. Bütün bu müddət ərzində radikallar və onların həmfikirləri dövlət qurumlarına, xüsusən də polisə hücum edirlər. İkinci istiqamət kilsədir... Kilsənin ölkədə xüsusi bir nüfuza və etibara malik olması bəzi insanların xoşuna gəlmir, buna görə də onlar bu etimadı bir şəkildə sarsıtmaq istəyirlər və hücumların intensivliyini də artırırlar", deyə baş nazir Kobaxidzenin bəyan etdikləri də çox şeydən xəbər verir. Xüsusən ondan xəbər verir ki, Qərb kilsədən də "ehtiyyat" edir deyə növbəti hədəf də kilsə seçilib. Elə məhz kilsəyə olan ən xırda hücum cəhdinə görə belə baş nazir tərəfindən həyəcan təbili salınırsa, deməli, indi də kilsə üzərində "sehrbazlıq" ediləcəyindən ehtiyat edilir.

### Qərbin zombiləşdirmə siyasəti, sehrbazlıq və maqiya kimi görünür, çünki təsir altına salınanlar alət kimi istifadə edilirlər...

Əslində, istənilən ölkənin hər bir vətəndaşı müxalifətçi olub-olmamasından asılı olmayaraq, ilk növbədə dövlət maraqlarını, milli maraqları qorumalı, vətəndaşlıq məsuliyyətini başa düşməlidir. Belə bir məsuliyyəti nəinki başa düşmədən, heç milli maraqları da görmədən belə oyunlara alət olmaq istəyinin müşahidə edilməsi sanki elə məhz sehbazlığın, maqiyanin təsiri kimi görünür. Əgər belə bir təsir olmasaydı, yəqin ki, Gürcüstandakı müxalifət düşərgəsi özü belə hansısa əməllərdən, xüsusən də, məsələn, meydanda tabut yandıraraq, törətdikləri qorxu hissi doğuran əməllərdən imtina edərdi. Bir zamanlar qırxılmış başlarına dəvə dərisi keçirərək insanları qızmar günəş altında bir neçə gün saxlamaqla, onları zombiləşdirənlər sehrbaz, əməlləri isə maqiya sayılırdı, çünki onlar həmin zombiləşdirdiklərini istədikləri kimi idarə edə bilirdilər. İstədikləri kimi idarə edə bilirdilər deyə, hətta onlara öz valideynlərini, övladlarını belə öldürmək əmri verdikdə müti şəkildə əmrə müntəzir olurdular və qətiyyən imtina etmirdilər. Belələrini idarə etmək çox asan olurdu və hansı əmrin verilməsindən asılı olmayaraq yerinə yetiriləcəyinə öncədən əminlik var idi deyə, insanlar bu əmələ sehr və küfr kimi baxırdılar. Bir sözlə, həmin dövrdə insanların bu şəkildə idarə olunması, zombiləşdirilməsi sehrbazlıq, maqiya sayılırdı. Elə indi də Qərbin zombiləşdirmə siyasəti,sehrbazlıq və maqiya kimi görünür, çünki təsir altına saldıqlarını alət kimi istədikləri şəkildə istifadə edirlər.

***İnam Hacıyev***



# Azərbaycan-Gürcüstan: strateji tərəfdaşlığın möhkəmlənməsində birgə səylər

***Azərbaycan ilə Gürcüstan arasında əlaqələr də möhkəm təməllər üzərində qurulub. İki ölkə arasında bu günə qədər imzalanmış sənədlər əməkdaşlıq üçün yeni imkanlar açıb. İqtisadi, siyasi, sosial və s. sahələrdə qurulan əməkdaşlıq münasibətləri dövlətlər arasında qarşılıqlı anlaşmanın qurulmasına və davamlı olmasına təsirini göstərir. Mövcud münasibətlər çoxşaxəli, qarşılıqlı maraq əsasında qurulub, əməkdaşlıq əlaqələrinin inkişafına üstünlük verilib.***



*Prezident İlham Əliyev: "Qarşılıqlı hörmət və etimada əsaslanan ikitərəfli münasibətlərimizin bu gün hərtərəfli və müvəffəqiyyətlə inkişaf etməsi bizi sevindirir"*

"Azərbaycan-Gürcüstan əlaqələri tarixən dostluq və mehriban qonşuluq şəraitində yaşamış, bir-birinə daim dəstək olmuş xalqlarımızın iradəsindən qaynaqlanır. Belə möhkəm təməllər üzərində qurulmuş, qarşılıqlı hörmət və etimada əsaslanan ikitərəfli münasibətlərimizin bu gün hərtərəfli və müvəffəqiyyətlə inkişaf etməsi bizi sevindirir". Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev Gürcüstanın yeni seçilmiş Prezidenti Mixeil Kavelaşviliyə ünvanladığı təbrikində bildirib. İki ölkə arasında strateji tərəfdaşlıq bütün region üçün nümunədir. Cənubi Qafqaz indiki və gələcək inkişafı baxımından çox böyük əhəmiyyət kəsb edən bu münasibətlərin keyfiyyətcə yeni mərhələyə qədəm qoyub. Mövcud münasibətlər çoxşaxəli, qarşılıqlı maraq əsasında qurulub, əməkdaşlıq əlaqələrinin inkişafına üstünlük verilib. "İnanıram ki, ölkələrimizin və xalqlarımızın rifahı, regionumuzun sabitliyi və təhlükəsizliyinin təmin olunması, iqtisadi potensialının reallaşdırılması naminə dövlətlərarası əlaqələrimizin və strateji tərəfdaşlığımızın daha da möhkəmləndirilməsi və genişləndirilməsi istiqamətində birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Gürcüstan xalqının firavanlığı naminə qarşıdakı məsul fəaliyyətinizdə uğurlar arzulayıram" – deyə Prezident məktubunda bildirib.

### "BİZİM BİRGƏ HƏYATA KEÇİRDİYİMİZ LAYİHƏLƏR HƏM ÖLKƏLƏRİMİZ, HƏM QİTƏ, HƏM DƏ DÜNYA ÜÇÜN ÖNƏMLİDİR"

Azərbaycan və Gürcüstan arasında iqtisadi, siyasi, sosial və s. sahələrdə qurulan əməkdaşlıq münasibətləri dövlətlər arasında qarşılıqlı anlaşmanın qurulmasına və davamlı olmasına təsirini göstərir. Azərbaycan ilə Gürcüstan arasında əlaqələr də möhkəm təməllər üzərində qurulub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışlarının birində bildirdiyi kimi, biz əsrlər boyu mehriban qonşuluq şəraitində yaşamışıq və bu gün uğurla inkişaf edirik: "Bizim birgə həyata keçirdiyimiz layihələr həm ölkələrimiz, həm qitə, həm də dünya üçün önəmlidir. Yəni biz çox uğurlu əməkdaşlıq formatı yarada bildik. Bunu bizim siyasi iradəmiz diktə edir. Əminəm ki, biz bütün məsələlərdə hər zaman bir-birimizin yanında olacağıq, bir-birimizə dəstək göstərəcəyik, necə ki, bu günə qədər bütün məsələlərdə həmişə bir yerdə olmuşuq". İki ölkə arasında bu günə qədər imzalanmış sənədlər əməkdaşlıq üçün yeni imkanlar açıb.

İki ölkə arasında diplomatik əlaqələr – 32 il əvvəl, 1992-ci ildə qurulub. 1995-ci ilin fevral ayında Bakıda Gürcüstan səfirliyinin, 1996-cı ilin mart ayında isə Tbilisidə Azərbaycan səfirliyinin açılışı ikitərəfli əlaqələrin inkişafına əlavə stimul verib. 1993-cü ildə Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı iki xalq arasında münasibətlərin inkişafına yeni imkanlar açdı. Azərbaycanla Gürcüstan arasında yaxınlığın və əlaqələrin inkişafına böyük təkan verən ikitərəfli münasibətlər mükəmməl hüquqi bazaya malikdir. Bu münasibətlər həm siyasi, həm iqtisadi, həm də sosial-humanitar sahələri əhatə edir. Gürcüstan regionda Azərbaycanın ən yaxın müttəfiqlərindəndir.

### DÖVLƏTLƏRİ BİRLƏŞDİRƏN NƏQLİYYAT-KOMMUNİKASİYA LAYİHƏLƏRİ

Gürcüstanla Azərbaycanı hər şeydən əvvəl Bakı-Supsa, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum və TRASEKA kimi qlobal enerji, nəqliyyat-kommunikasiya layihələri birləşdirir. Bununla paralel olaraq, GUAM, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı və digər qurumlar daxilində əməkdaşlıq ikitərəfli strateji əlaqələri daha da möhkəmləndirib. 1998-ci il sentyabrın 7–8-də Tarixi Böyük İpək yolunun bərpası üzrə Beynəlxalq Konfransı keçirildi. 1998-ci il oktyabrın 7-də Azərbaycanın Gürcüstanla sərhədində yeni körpünün açılışı oldu, 1999-cu il aprelin 17-də isə Bakı-Supsa neft kəmərini işə salındı. Ötən dövrdə hər iki ölkənin həyatında tarixi əhəmiyyətə malik olan Bakı-Tbilisi-Ceyhan neft ixrac kəmərinin tikintisi sahəsində intensiv işlər aparılıb.

Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezident İlham Əliyevin ölkəyə rəhbərliyi dövründə bu münasibətlər daha da dərinləşmişdi. Nəhayət, 2005-ci il mayın 24–25-də neft kəmərinin Azərbaycan, oktyabrın 12-də isə Gürcüstan hissəsinin istifadəyə verilməsi mərasimi keçirildi.

### REALLAŞAN LAYİHƏLƏRİ BUNDAN SONRA DA İNKİŞAF ETDİRƏCƏYİK

Həyata keçirilən bu layihələr iqtisadi inkişafa böyük təsirini göstərməkdədir.Azərbaycanda yaşayan gürcülər və Gürcüstanda yaşayan azərbaycanlılar əlaqələrimizin inkişafında mühüm rol oynayırlar. Gürcüstan və Azərbaycanın çoxmillətli, çoxkonfessiyalı ölkələrdir. Bütün sahələrdə uğurlu əlaqələr böyük layihələrin reallaşmasına səbəb olur və iki dövlət arasında olan dostluğun təməlini daha da möhkəmləndirir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi: "Bizim bütün sahələr üzrə əməkdaşlığımızın çox böyük perspektivləri, ən əsası isə, güclü siyasi iradə var. Gürcüstan və Azərbaycan bundan sonra da bir-birini dəstəkləyəcək. Biz reallaşan layihələri bundan sonra da inkişaf etdirəcəyik və yeni layihələr haqqında düşünəcəyik". Bildiyimiz kimi, Azərbaycan-Gürcüstan dostluğunun çox qədim tarixi kökləri var. Əsrlər boyu qonşu olan Azərbaycan və gürcü xalqları arasında heç bir zaman ciddi problem, münaqişə olmayıb. Azərbaycan-Gürcüstan dostluğu Cənubi Qafqazda əməkdaşlığın və təhlükəsizliyin qarantına çevrilib. Gürcüstanda yaşayan azərbaycanlılar Gürcüstanın dövlətçiliyinə dəstək olmuşlar.

Bu əlaqələr bu gün uğurla davam etdirilir. Dövlətləri tarixi dostluq, mehriban qonşuluq münasibətləri, eləcə də sıx strateji tərəfdaşlıq birləşdirir. Dövlətləri birləşdirən çoxtərəfli əlaqələr, eləcə də çoxəsrlik dostluq, qardaşlıq münasibətləri möhkəm təməl üzərindədir. Azərbaycan - Gürcüstan arasında strateji tərəfdaşlıq əlaqələri müttəfiqlik səviyyəsinə yüksəlib. Bütün beynəlxalq təşkilatlarda hər iki dövlət bir-birini dəstəkləyir. Azərbaycan və Gürcüstanın birgə icra etdiyi layihələr region dövlətləri ilə yanaşı Avropa ölkələri üçün də böyük əhəmiyyət daşıyır.

***Nəzakət ƏLƏDDİNQIZI***

# MEDİA-da Qazaxıstanla media savadlılığı və təcrübə mübadiləsi müzakirə olunub




***Dekabrın 16-da Medianın İnkişafı Agentliyində (MEDİA) Qazaxıstan Respublikasının Prezidenti yanında "Mərkəzi Kommunikasiyalar Xidməti" Respublika Dövlət Müəssisəsinin nümayəndələri ilə görüş keçirilib.***

MEDİA-dan AZƏRTAC-a bildirilib ki, görüş zamanı Medianın İnkişafı Agentliyinin İcraçı direktorunun müavini Natiq Məmmədli bu gündən etibarən başlayan "Media Savadlılığı" Həftəsi haqqında məlumat verərək həftənin cəmiyyətdə media savadlılığının artırılmasına, uğurlu beynəlxalq təcrübələrin öyrənilməsinə yönəldiyini vurğulayıb. O, həmçinin həssas istifadəçi qrupu hesab olunan yeniyetmə və gənclərin bilik və bacarıqlarının inkişafı, informasiya mənbələri və axını ilə səmərəli qarşılıqlı əlaqənin qurulması, eyni zamanda, məsuliyyətli rəqəmsal vətəndaşlığın təbliği məqsədilə bir sıra tədbir və layihələrin həyata keçiriləcəyini qeyd edib.

Qazaxıstan Respublikasının Prezidenti yanında "Mərkəzi Kommunikasiyalar Xidməti" Respublika Dövlət Müəssisəsinin direktor müavini Dmtriy Qoloburda isə "Media Savadlılığı" Həftəsinin məqsəd və əhəmiyyətini yüksək qiymətləndirərək informasiya bolluğu dövründə doğru məlumatın seçilməsi və yayılmasının vacibliyini vurğulayıb, hər iki ölkə arasında media sahəsində əməkdaşlığın daha da genişləndirilməsi və təcrübə mübadiləsinin aparılması üçün birgə layihələrin həyata keçirilməsinin böyük önəm kəsb etdiyini diqqətə çatdırıb.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

# YAP İdarə Heyətinin iclası keçirilib

**_Dekabrın 16-da Yeni Azərbaycan Partiyasının (YAP) İdarə Heyətinin növbəti iclası keçirilib. İclasda ilk olaraq Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası tərəfindən bələdiyyə üzvlüyünə namizədlərin irəli sürülməsi məsələsinə baxılıb._**




YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Yeni Azərbaycan Partiyasının avanqard siyasi qüvvə kimi hər zaman ictimai-siyasi proseslərin önündə getdiyini və mühüm qələbələrə imza atdığını, qarşıdan gələn bələdiyyə seçkilərinə də yüksək səviyyədə hazırlaşdığını qeyd edib. O bildirib ki, yerli özünüidarəetmə orqanlarında təmsil olunan YAP üzvləri xalqın etimadını böyük məsuliyyət kimi qəbul edərək bu sahədə konkret nəticələrin əldə olunmasına hesablanan məqsədyönlü fəaliyyət həyata keçirirlər: "Bununla bərabər, yerli özünüidarəetmənin təkmilləşdirilməsi, eləcə də əhaliyə göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi və vətəndaş məmnunluğunun artırılması naminə qarşıda mühüm vəzifələr durur. Əminəm ki, xalqın iradəsi əsasında yeni formalaşacaq bələdiyyələrdə təmsil olunmaq hüququ qazanacaq YAP üzvləri də dövlət başçısının "Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşının rifahı və mənafeyi dayanır" fikrini əsas götürərək ötən dövrün təcrübəsini və yeni dönəmin çağırışlarını nəzərə almaqla bu sahədə məqsədyönlü fəaliyyət göstərəcəklər".





Tahir Budaqov seçkilərin keçiriləcəyi 685 bələdiyyənin hər biri üzrə, ümumilikdə 8071 namizədin müəyyən edildiyini və onların siyahısının İdarə Heyətinin üzvlərinə əvvəlcədən təqdim olunduğunu vurğulayaraq münasibət bildirilməsini xahiş edib.

YAP Sədrinin müavini Əli Əhmədov çıxış edərək ölkəmizdə ötən müddət ərzində yerli özünüidarəetmə orqanlarının inkişafı istiqamətində mühüm addımlar atıldığını diqqətə çatdırıb. O, seçkilərin əhəmiyyətinə toxunaraq YAP tərəfindən namizədliyi irəli sürülən şəxslərin müasir, qalib və qüdrətli Azərbaycanın vətəndaşlarının yüksək rifahı naminə öz üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirmək üçün var gücü ilə çalışacaqlarına inamını ifadə edib və İdarə Heyətinin üzvlərini həmin namizədləri dəstəkləməyə çağırıb. Məsələ səsə qoyulub və YAP-ın bələdiyyə üzvlüyünə namizədlərinin siyahısı yekdilliklə təsdiq olunub.

Bundan sonra seçki komissiyalarının tərkibinə təklif olunan məşvərətçi səs hüquqlu üzvlər, seçki dairə və məntəqələrində səsvermə günü müşahidə aparacaq şəxslərlə bağlı məsələyə baxılıb və onların siyahıları təsdiq edilib.

İclasa yekun vuran YAP Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov irəli sürülmüş namizədlərin göstərilmiş etimadı doğrultmaq üçün səylərini əsirgəməyəcəklərinə əminliyini ifadə edərək onlara uğurlar arzulayıb: "İnanırıq ki, 2025-ci il yanvarın 29-da keçiriləcək növbəti bələdiyyə seçkiləri Ulu Öndər Heydər Əliyevin dəyərli mənəvi-siyasi mirası olan və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə şərəfli inkişaf yolunda əmin addımlarla irəliləyən Yeni Azərbaycan Partiyasına xalqımızın inam və etimadının növbəti bariz nümunəsi olacaqdır".

# Diplomsuzlar diplomluların haqqına girir?

*Diplomsuzlar diplomluların haqqına girir?*



EKSPERT DANIŞDI

"Diplomsuz şəxslərin diplomlu kadrların haqqına girməsi müasir əmək bazarında çox ciddi sosial-iqtisadi problemlərdən biridir. Bu məsələ xüsusilə işə qəbul prosesində şəffaflığın olmadığı, peşəkar bilik və bacarıqların qiymətləndirilmədiyi ölkələrdə daha çox rast gəlinir. Problemin kökləri müxtəlif aspektlərdən ibarətdir və onun həm yerli, həm də beynəlxalq təcrübədə müxtəlif nümunələri mövcuddur". Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Kamran Əsədov deyib.

Kamran Əsədov sözlərinə belə davam edib: "İlk olaraq, bu məsələnin Azərbaycan kontekstini nəzərdən keçirək. Təhsil sisteminə ayrılan vəsaitin həcmi və keyfiyyət göstəriciləri təhsilli kadrların hazırlanması üçün kifayət etməli olduğu halda, real vəziyyət fərqlidir. Statistik məlumatlara görə, Azərbaycanda ali təhsilli insanların sayı ümumi əhali arasında cəmi 17%-dir ki, bu da dünya ortalamasından xeyli aşağıdır. Lakin maraqlıdır ki, dövlət qurumlarında və özəl sektorda çalışanlar arasında diplom tələb olunmayan və ya uyğun ixtisası olmayan şəxslərin faizi kifayət qədər yüksəkdir. Bu, bir çox hallarda ixtisaslı kadrların öz peşələrinə uyğun iş tapmaqda çətinlik çəkməsinə səbəb olur.



İkinci bir problem saxta diplomlarla bağlıdır. Dünyada olduğu kimi, Azərbaycanda da saxta təhsil sənədləri ilə işə qəbul hallarına rast gəlinir. Ən son məlumatlara görə, Azərbaycanda hər il onlarla saxta diplom faktı aşkarlanır, lakin bu, yalnız üzə çıxarılan hallardır. Saxta diplom problemi xüsusilə dövlət müəssisələrində peşəkarlıq səviyyəsini aşağı salır və həqiqi diplomlu kadrların hüquqlarını pozur. Beynəlxalq təcrübədə, məsələn, ABŞ və Avropa ölkələrində bu məsələyə çox sərt yanaşılır. İşə qəbul prosesində universitetlərin akkreditasiyasının yoxlanması, akademik arayışların təsdiqlənməsi və beynəlxalq qiymətləndirmə sistemlərinin tətbiqi kimi mexanizmlər saxtakarlığın qarşısını almaqda mühüm rol oynayır.

Dünyanın ən yaxşı təhsil sisteminə malik olan Finlandiya, Norveç və Almaniya kimi ölkələrdə diplomlu şəxslərin məşğulluq səviyyəsi 85-90% arasında dəyişir. Bu ölkələrdə işə qəbul prosesində həm akademik biliklər, həm də praktiki bacarıqlar ciddi şəkildə qiymətləndirilir. Məsələn, Almaniyada peşəkar sertifikatlaşdırma və təcrübə proqramları diplomlu kadrların iş bazarına uyğunlaşmasını asanlaşdırır. Azərbaycanda isə işə qəbulda bu cür obyektiv meyarların tam tətbiq olunmaması ciddi problemlər yaradır. Təhsilli şəxslərin hüquqlarını qorumaq üçün ilk növbədə işə qəbul prosesində şəffaflıq təmin edilməlidir. İşəgötürənlər yalnız diplomu deyil, eyni zamanda bilik və bacarıqları da obyektiv şəkildə yoxlamalıdırlar. Bundan əlavə, təhsil sisteminin keyfiyyətini artırmaq, beynəlxalq təcrübədən istifadə edərək kadr hazırlığını daha müasir standartlara uyğun qurmaq vacibdir. Təhsil sahəsində "yaşam boyu öyrənmə" konsepsiyasının tətbiqi həm təhsil alanlar, həm də təhsil verənlər üçün yeni imkanlar yarada bilər.

Son olaraq, bu problemin həlli üçün təhsilin və peşəkarlığın cəmiyyətdəki dəyəri artırılmalıdır. Təhsil yalnız şəxsi inkişaf üçün deyil, həm də milli iqtisadiyyatın dayanıqlılığı üçün əsasdır. Bu səbəbdən, təhsil sahəsində islahatlar, saxta diplomların qarşısının alınması, işə qəbulda obyektivlik kimi məsələlər strateji əhəmiyyət daşıyır. Diplomlu şəxslərin haqqının qorunması üçün müasir və effektiv mexanizmlər tətbiq olunmalı, eyni zamanda peşəkar kadrlara cəmiyyətin hər sahəsində daha çox önəm verilməlidir".

***Ayşən Vəli***

# 2025-ci ilin dövlət büdcəsi və büdcə zərfinə daxil olan qanun layihələri qəbul edilib

***Dünən Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin payız sessiyasında növbəti plenar iclası keçirilib. İclasda Baş nazir Əli Əsədov və hökumət üzvləri iştirak ediblər.***




Milli Məclisin növbəti plenar iclası keçirilib

Parlamentin sədri Sahibə Qafarova diqqətə çatdırıb ki, bugünkü iclasın gündəliyinə 14 məsələ daxil edilib və 10 məsələ 2025-ci ilin dövlət büdcəsi və büdcə zərfinə daxil olan qanun layihələridir. Sonra parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında" qanun layihəsi (üçüncü oxunuş) barədə məlumat verib.

O bildirib ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən Milli Məclisə təqdim edilmiş 2025-ci ilin dövlət büdcəsi layihəsi və büdcə zərfinə daxil olan digər layihələr həm komitədə, həm də plenar iclaslar çərçivəsində hökumət üzvlərinin və aidiyyəti dövlət orqanlarının nümayəndələrinin iştirakı ilə geniş müzakirə edilib.

Azər Əmiraslanov diqqətə çatdırıb ki, dövlət büdcəsinin həm gəlirləri, həm də xərcləri üzrə 40 milyon manat məbləğində artım istiqamətində dəyişiklik edilir. Qeyd olunub ki, bəzi istiqamətlər üzrə xərclər ümumilikdə 229,8 milyon manat azaldılır, digər istiqamətlər üzrə həmin məbləğ qədər artırılır. Beləliklə, dövlət büdcəsinin gəlirləri növbəti il üçün 38 milyard 356 milyon manat, xərcləri isə 41 milyard 407 milyon 600 min manat nəzərdə tutulur.

Sonra maliyyə naziri Samir Şərifov 2025-ci ilin dövlət büdcəsi layihəsi ilə bağlı çıxış edib. Diqqətə çatdırılıb ki, büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxilolmalarını və ona müvafiq olaraq büdcədənkənar xərclərini 40,0 milyon manat məbləğində artırmaq nəzərdə tutulur. Əlavə gəlir potensialının səfərbər edilməsi yolu ilə bir sıra publik hüquqi şəxslərə xərclərini dövlət büdcəsi hesabına deyil, daha çox öz gəlirləri hesabına təmin etmək tövsiyə edilir. Bunun nəticəsi olaraq, təqribən 159 milyon manat vəsaitin bu təyinat üzrə sərbəstləşdirilməsi və tam həcmdə ölkəmizin müdafiə və milli təhlükəsizliyinin daha da gücləndirilməsi ilə bağlı tədbirlərinin əlavə maliyyə təminatına yönəltmək təklif olunur. Bununla müdafiə və milli təhlükəsizlik xərclərinin dövlət büdcəsindəki ümumi məbləği 8 milyard 555 milyon manata çatdırılır.

Samir Şərifov bildirib ki, büdcə təşkilatlarında malların və xidmətlərin alınması üzrə xərclərin optimallaşdırılması yolu ilə əlavə 36 milyon manat vəsaiti sərbəstləşdirmək və aşağıdakı istiqamətlər üzrə xərcləri artırmaq nəzərdə tutulur. Belə ki, Milli Məclisin maliyyə təminatını əlavə olaraq 815,0 min manat məbləğində artırmaq, Prezidentin tapşırığı ilə siyasi partiyalara maliyyə yardımının ayrılması üçün ilkin proqnozlaşdırılan vəsaitin 1,0 milyon manat və ya 20 faiz artırmaq, 2025-ci ildə Yaponiyanın Osaka şəhərində keçiriləcək Ümumdünya Sərgisində — Expo-2025-də ölkəmizin təmsil olunması xərcləri də daxil olmaqla dövlət büdcəsində beynəlxalq fəaliyyət üzrə xərcləri 24 milyon manat artırmaq, ölkəmizin ixrac və investisiya potensialının təbliği ilə bağlı xərclərin maliyyələşdirilməsi üçün 10,0 milyon manat ayırmaq planlaşdırılır.

Bununla yanaşı, 2025-ci ilin dövlət büdcəsində Prezidentin müvafiq Fərmanı ilə Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika və Su Ehtiyatları agentliklərinin səlahiyyətlərinin müvafiq olaraq "AzərEnerji", "Azərişıq" Açıq Səhmdar Cəmiyyətlərinə və Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinə ötürülməsi ilə bağlı dəyişikliklərin və bununla bağlı müvafiq xərclərin dövlət büdcəsində əks etdirilməsi zərurəti yaranıb. Müvafiq olaraq Naxçıvan Muxtar Respublikasına dövlət büdcəsinin mərkəzləşdirilmiş xərclərindən ayrılması nəzərdə tutulmuş dotasiyanın məbləği 34,8 milyon manat azaldılır və eyni məbləğdə vəsait muxtar respublikanın ərazisində fəaliyyət göstərən Dövlət Su Ehtiyatları Agentliyinin maliyyə təminatına yönəldilir.

Nazir qeyd edib ki, təklif olunan dəyişikliklər qəbul edildiyi təqdirdə, 2025-ci il üçün həm dövlət, həm də icmal büdcələrin gəlir və xərcləri bərabər olaraq 40,0 milyon manat artır, yəni, dövlət büdcəsinin gəlirləri 38 milyard 356 milyon manat, xərcləri 41 milyard 407 milyon 600 min manat, icmal büdcənin gəlirləri 43 milyard 950 milyon 500 min manat, xərcləri 47 milyard 629 milyon 400 min manat təşkil edəcək. Dövlət və icmal büdcələrinin kəsirlərində hər hansı dəyişiklik baş verməyəcək və onlar ilkin təqdim olunmuş büdcə layihəsindəki kimi saxlanılır.

Müzakirələrin yekununda "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında" qanun layihəsi üçüncü oxunuşda qəbul edilib. Sonra gündəliyin növbəti iki məsələsi – "Dövlət sosial müdafiə fondunun 2025-ci il büdcəsi haqqında" və "İşsizlikdən sığorta fondunun 2025-ci il büdcəsi haqqında" qanun layihələri təqdim edilib. Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev bu məsələlər barədə məlumat verib.

Hər iki qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

İclasda Azər Əmiraslanov "Azərbaycan Respublikasında 2025-ci il üçün yaşayış minimumu haqqında" qanun layihəsini (üçüncü oxunuş) təqdim edib. O bildirib ki, layihəyə əsasən, əhalinin əsas sosial-demoqrafik qrupları üzrə yaşayış minimumunun məbləği 2025-ci il üçün ölkə üzrə 285 manat, əmək qabiliyyətli əhali üçün 305 manat, pensiyaçılar üçün 232 manat, uşaqlar üçün 246 manat məbləğində müəyyən edilir. Sonra Musa Quliyev "Azərbaycan Respublikasında 2025-ci il üçün ehtiyac meyarının həddi haqqında" qanun layihəsi (üçüncü oxunuş) barədə məlumat verib. O, 2025-ci il üçün ehtiyac meyarının həddinin 285 manat məbləğində müəyyən edildiyini diqqətə çatdırıb. Müzakirələrdən sonra qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Komitə sədri Azər Əmiraslanov Vergi Məcəlləsində, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 406-VIQD nömrəli Qanununda, "Nağdsız hesablaşmalar haqqında" Qanunda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihələrinə dair məlumat verib. Qanun layihələri üçüncü oxunuşda qəbul edilib.

Parlamentin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev "Sosial sığorta haqqında", "Tibbi sığorta haqqında" və "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihəsinin mahiyyəti barədə danışıb. Qanun layihəsi səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib. Azər Əmiraslanov, həmçinin "Gömrük tarifi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi barədə məlumat verib. Qanun layihəsi üçüncü oxunuşda qəbul edilib. Beləliklə, büdcə zərfinə daxil olan bütün qanun layihələri üçüncü oxunuşda qəbul olunub.

İclasda çıxış edən Baş nazir Əli Əsədov bildirib ki, 2024-cü il Vətənimiz üçün siyasi müstəvidə çox önəmli tarixi hadisələrlə zəngin olub, Azərbaycanın bütün suveren ərazisində prezident və parlament seçkiləri keçirilib. Eyni zamanda, Prezidentin Sərəncamına əsasən, sentyabrın 20-si Dövlət Suverenliyi Günü kimi təsis edilib, "Əsrin müqaviləsi"nin bağlanmasının 30-cu ildönümü qeyd olunub.

Əli Əsədov diqqətə çatdırıb ki, 2025-ci ildə dövlət büdcəsinin gəlirləri təxminən 38,4 milyard manat, xərcləri isə 41,4 milyard manat proqnozlaşdırılır. Dövlət büdcəsi kəsirinin ÜDM-ə nisbəti 2,4 faizdir. Büdcə layihəsi müasir Azərbaycan tarixində ən böyük büdcədir. Makroiqtisadi proqnozlara əsasən, 2025-ci ildə ümumi daxili məhsulun 3,5 faiz (129,2 milyard manat), qeyri-neft sektoru üzrə isə 4,9 faiz real artım tempi proqnozlaşdırılır. Gələn ilin dövlət büdcəsində müdafiə və milli təhlükəsizlik xərcləri ümumi büdcə xərclərinin 20,6 faizini təşkil edir. 2025-ci ildə büdcənin əsas xərc istiqamətlərindən biri əhalinin sosial müdafiəsi və sosial təminatı olacaq. Şəhid ailələrinə, qazilərə diqqət və qayğı dövlət siyasətinin prioritetləri sırasında daim qalmağa davam edəcək. Ümumilikdə bütün istiqamətlər üzrə sosialyönlü xərclər dövlət büdcəsi xərclərinin 40 faizini üstələyir. 2025-ci ildə minimum əməkhaqqı, pensiya, müavinət və digər sosial ödənişlərdə yeni artımlar 3 milyona yaxın vətəndaşı əhatə edəcək. Səhiyyə sahəsində aparılan davamlı islahatların nəticəsində cari ildə Tibbi Xidmətlər Zərfi çərçivəsində göstərilmiş xidmətlərin sayında 21 faiz artım olub.

Baş nazir diqqətə çatdırıb ki, azad olunmuş ərazilərdə aparılan bərpa-quruculuq işlərinə 2020-ci ildən başlayaraq ümumilikdə 22 milyard manata yaxın, o cümlədən 2025-ci ildə 4 milyard manat vəsait ayrılıb. Böyük Qayıdış çərçivəsində bu günədək 2417 ailə - 9306 nəfər azad olunmuş ərazilərə köçürülüb.

Baş nazir deputatların səsləndirdikləri bir sıra məsələlərin həlli üçün təkliflərə cavab olaraq bildirib ki, ölkə ərazisində qazlaşdırılma səviyyəsi 96,6 faizdir (o cümlədən Naxçıvanda 100 faiz). Bu göstəriciyə görə ölkəmiz MDB və digər qonşu ölkələri qabaqlayır. Hazırda 473 məktəbin əsaslı təmirinə ehtiyac var. Bu, ölkədəki bütün məktəblərin 10 faizini təşkil edir. Bunlardan 123 məktəbdə təmir-tikinti işlərinin gələn ildə aparılması nəzərdə tutulub. 2021-ci ildən bu günədək ölkə üzrə 2700 kilometrdən çox avtomobil yolları yenidən qurulub və təmir olunub. Bununla yanaşı, işğaldan azad edilmiş ərazilərdə 45 layihə icra edilir. Baş nazir bildirib ki, dövlət büdcəsində "2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda nəzərdə tutulan layihələrin maliyyələşdirilməsinə 1,1 milyard manat və investisiya xərclərindən sosial və infrastruktur təyinatlı layihələrə 540 milyon manat vəsait ayrılacaq.

"Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın icrası diqqət mərkəzində saxlanılacaq və 150 milyon manat vəsait nəzərdə tutulub. Eyni zamanda, hökumət tərəfindən regionların sosial-iqtisadi inkişafına dair növbəti 5 illik dövlət proqramının hazırlanması planlaşdırılır.

Sonra Milli Məclisin 2025-ci il üçün xərclər smetası haqqında və Hesablama Palatasının 2025-ci il üçün xərclər smetası haqqında Milli Məclisin qərar layihələri səsə qoyularaq qəbul edilib. "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (üçüncü oxunuş) ilə bağlı isə komitə sədri Azər Əmiraslanov məlumat verib. Qanun layihəsi üçüncü oxunuşda qəbul edilib. İclasda Cinayət Məcəlləsində, Miqrasiya Məcəlləsində, İnzibati Xətalar Məcəlləsində, "Əhalinin sağlamlığının qorunması haqqında", "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə", "Psixiatriya yardımı haqqında", "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini müzakirə olunub.

Məsələ ilə bağlı Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev məlumat verib. Bildirilib ki, layihəyə əsasən, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Qanuna "tibbi şəhadətləndirilmə", "elektron kabinet" və "çağırış vərəqəsi" anlayışları əlavə edilir. Təklif olunan dəyişikliklərdə vətəndaşların hərbi vəzifələrinin icrası ilə bağlı xidmətlərin müvafiq informasiya sistemi vasitəsilə həyata keçirilməsi və hərbi vəzifələrinin icrası ilə əlaqədar vətəndaşlar tərəfindən elektron kabinetlərin yaradılması nəzərdə tutulub. Bundan başqa, layihədə aidiyyəti dövlət orqanları arasında tibbi müayinənin nəticələrinin elektron əldə edilməsi, müvafiq dövlət orqanlarının sistemlərinin qarşılıqlı inteqrasiyası ilə bağlı müddəalar əks olunub. Həmçinin müddətli həqiqi hərbi xidmətə çağırış üçün nəzərdə tutulan son yaş həddinin 30 yaşa endirilməsi təklif olunub. Cinayət Məcəlləsinin 321-ci maddəsinə əlavə edilməsi təklif olunan "Qeyd" hissəsində "çağırışdan boyun qaçırma" əməlinin nədən ibarət olması dəqiq müəyyən olunur.

Digər qanunlara dəyişikliklər isə "Hərbi vəzifə və hərbi xidmət haqqında" Qanunda mövcud olan müddəalardan və bu layihə ilə təklif edilən dəyişikliklərdən irəli gəlir. Deputatlar dəyişikliklərə dair fikirlərini bildirib, qeydlərini səsləndirdikdən sonra qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.





# Azərbaycan caz musiqisinin əfsanəsi

***Caz-muğam üslubunun banilərindən biri olan Vaqif Mustafazadə zaman anlayışına sığışmayan bir insan ömrü yaşadı. O, gözəl pianoçu olmaqla yanaşı, həm də çoxsaylı caz əsərləri yaratmış istedadlı bəstəkar kimi yaddaşlarda qaldı. 1940-cı il martın 16-da Azərbaycan musiqisi, muğamın klassik Amerikan caz musiqisi ilə sintezini yaratmış dünyaşöhrətli cazmen Vaqif Mustafazadə anadan olub.***

İfası, novatorçuluğu ilə Azərbaycan caz musiqisinə yeni, orijinal üslub bəxş edən sənətkar yaşadığı qısa bir zaman məsafəsində dünyanı musiqisi ilə heyrətləndirə bildi. Yaradıcılığa kiçik yaşlarından başlayan Vaqif Mustafazadənin sənət uğurları məhz onun sənət səhifələrini bəzədi. Belə ki, sənətkar musiqisi ilə dünyaya səs saldı. Vaqif Mustafazadə Azərbaycan caz musiqisinin banisi və yeni caz fikrinin yaradıcısıdır. O, Azərbaycan musiqisinin, muğamın klassik Amerikan caz musiqisi ilə sintezini yaratmışdır. Onun yeni devizi caz-muğam adlanır. Sənətkarı Azərbaycan muğam caz hərəkatının memarı da adlandırırlar.

Vaqif Asəf Zeynallı adına Bakı Musiqi Məktəbinə daxil olduqdan bir il sonra 1958-ci ildə Azərbaycan Dövlət Radio Verilişləri Komitəsində solist kimi əmək fəaliyyətinə başlayır. 1964-cü ildə o, Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasına daxil olur və 1965-ci ildə Tbilisiyə köçür. Onu ”Orera” ansamblına musiqi rəhbəri vəzifəsinə dəvət edirlər. Burada caz festivallarında və konsertlərdə müvəffəqiyyətlə çıxış edir. Tallində keçirilən Ümümdünya Caz Musiqisi Festivalında o, bir neçə kompozisiyanı ifa edir və maraqla qarşılanır.

Tərcümeyi-halında qeyd olunduğu kimi, 1968-ci ildə Azərbaycanın musiqi aləmində yüksək nüfuza malik olan məşhur bəstəkar, Azərbaycanın mədəniyyət naziri Rauf Hacıyevin təkidi ilə Vaqif Mustafazadə Tbilisidən Bakıya qayıdır. Doğma Bakı, İçərişəhərin dar küçələri, burada keçirdiyi uşaqlıq illərinin unudulmaz xatirələri, tanış insanların mehriban çöhrələri Vaqif üçün sanki yeni ilham mənbəyinə çevrildi və o, yaradıcı fəaliyyətinin yeni mərhələsinə qədəm qoydu. Beynəlxalq caz müsabiqələri və festivallarının laureatı olur. Fortepiano və simfonik orkestr üçün konsertin, ”Muğam” simfoniyasının, bir sıra caz kompozisiyalarının və pyeslərin müəllifidir. 1970-ci ildə ”Leyli” vokal kvartetini yaradır. Qısa müddətdə bu qrup bakılı musiqisevərlərin böyük rəğbətini qazanır. Bir il sonra 1971-ci ildə bəzi səbəblərə görə ”Leyli” vokal qrupunun tərkibi və adı dəyişir. Bu dəfə ”Sevil” adlanan qrup tamaşaçılara daha doğma, daha yaxın olur. Bu dövrdə müxtəlif mahnı və melodiyaların caz üslubunda yazılışları və videokliplərin təşkili işləri üzərində işləyən Vaqif Mustafazadə özünün həm də bacarıqlı, öz işini gözəl bilən və düzgün yol göstərən musiqi rəhbəri olmasını sübut etdi. O öz kompozisiyalarında tez-tez dünya və Azərbaycan klassiklərinin yaradıcılığına müraciət edir və onlardan bəhrələnirdi. Azərbaycan bəstəkarlarının əsərlərinə hədsiz rəğbət bəsləyən Vaqif Mustafazadə dahi Üzeyir Hacıbəylinin sənətkarlığı qarşısında baş əyir, Qara Qarayev, Fikrət Əmirov, Niyazi kimi peşəkar bəstəkarların yaradıcılığına böyük hörmətlə yanaşırdı.





1971-ci ildən 1977-ci ilə kimi ”Sevil” vokal-instrumental qrupuna, 1977-ci ildən 1979-cu ilə kimi ”Muğam” instrumental qrupuna başçılıq edir. Ansamblın belə adlanması heç də təsadüfi deyildi. Vaqif caz və muğamın incə sintezini ilk baxışda bir-birinə tam əks olan Şərq və Qərb aləmlərini birləşdirən musiqini çoxsaylı sənətsevərlərin yaddaşında əbədi həkk etdi. Kollektivdə işləyən peşəkar musiqiçilər ondan çox şey öyrənmişdilər. Bu, sözün həqiqi mənasında, yüksək musiqi məktəbi və öz üzərində daimi iş illəri idi.

1978-ci ildə Monakoda keçirilən 8-ci Beynəlxalq Caz Festivalında ”Əzizəni gözləyirəm” musiqisinə görə birinci mükafatı almışdı. 1979-cu ildə Azərbaycanın əməkdar incəsənət xadimi adına, 1982-ci ildə isə ölümündən sonra Azərbaycan Dövlət Mükafatına layiq görülmüşdür. O, fortepiano konsertlərinin, ”Muğam” simfoniyası və başqa fortepiano şedevrlərinin müəllifidir. Lakin bütün bunlar Vaqifin öz övladlarından - iki qızından ötrü həqiqi sənət adamının nümunəsi və etalonu olmasına, onlara gözəl tərbiyə və əla musiqi savadı verməsinə mane olmadı. Gürcüstanda keçirilən ”Tbilisi 78” Ümumittifaq Festivalında Vaqif kiçik qızı Əzizə ilə birlikdə çıxış edirdi. Bu festivalda Vaqifin laureat adına layiq görülməsi, səkkiz yaşlı Əzizəyə isə festivalın xüsusi mükafatının verilməsi hər ikisinin qəlbində hədsiz qürur və sevinc hissləri oyatdı. O vaxt Vaqif bəlkə də heç təsəvvür edə bilməzdi ki, gənc Əzizə onun arzularını həyata keçirəcək, dünya şöhrətli musiqiçi olacaq. Təəssüf ki, Vaqif dünya caz səhnəsində çıxış edib öz məharətini göstərə bilmədi. Dövrün sərt qanunları çoxlu maneçilik və çətinliklər törədirdi. Yalnız bir dəfə, 1979-cu ildə Vaqifin Monakoda keçirilən Ümumdünya Caz Musiqi Müsabiqəsinə göndərdiyi ”Əzizəni gözləyərkən” adlı kompozisiya, müəllifinin bütün dünya musiqiçiləri ilə rəqabət apara biləcəyini sübut etdi. Vaqif kompozisiyasının müsabiqədə birinci yer tutması, özünün isə dünya miqyaslı musiqiçilər arasında ən yaxşı ifaçı adına layiq görülməsi xəbərini alanda, bəlkə də ömrünün ən həyəcanlı və xoşbəxt anlarını yaşadı. Müsabiqədə qalib gəldiyinə görə ona hədiyyə kimi, sülh və həyat eşqinin rəmzi, sırf musiqi rəmzi olan ”Ağ royal” verilmişdi. Vaqif Mustafazadənin musiqisi, bax, belə musiqi idi.

Azərbaycanda sosializm siyasətinin və sərt qaydaların hökm sürdüyü, heç də asan olmayan o illərə bu günümüzün prizmasından baxanda başa düşürük ki, Vaqif Mustafazadə kimi qeyri-adi, heç kəsə bənzəməyən pianoçu və bəstəkar üçün o dövrdə yaşamaq və işləmək heç də asan deyilmiş. Vaqif şəxsiyyətinin ətrafında həmişə çoxlu mübahisə və polemikalar olub, onun sağlığında da, ölümündən sonra da. O, cəmiyyətin yaratdığı stereotiplərə tabe olmurdu. Onun əsər və improvizasiyaları bu gün həm peşəkar caz musiqiçiləri, həm də onun işini davam etdirməyə cəhd göstərən gənclər tərəfindən diqqətlə təhlil və müzakirə edilir. Vaqif Mustafazadə öz zəmanəsinin görkəmli şəxsiyyəti idi. Gerçəkliyi qəbul etmək istəməyənlər daha canfəşanlıqla onun əleyhinə təbliğat aparsalar da, o, sənətdə bir etalon oldu. Vaqifin yaradıcılığını milli musiqimizə, muğama xəyanət kimi qiymətləndirənlər bununla da kifayətlənmirlər. Vaqifin televiziyada solo-konsert vermək cəhdi dəfələrlə boşa çıxır. Vaqif bu ədalətsizliyin, haqsızlığın fövqündə dayansa da, gündən-günə gərilən əsəblər özünü büruzə verir. 16 dekabr 1979-cu ildə Daşkənddə konsert zamanı səhnədə ”Əzizəni gözləyərkən” kompozisiyanı ifa edərkən ürək tutmasından vəfat edir. Bakıda dəfn olunur. Bu, Vaqif Mustafazadənin həyat eşqi və enerjisi ilə dolu insanın, Azərbaycan caz musiqisinin əfsanəsi olan musiqiçinin son konserti oldu. Vaqif Mustafazadə yaratdığı əsərləri ilə Azərbaycan musiqi irsinə böyük töhfələr vermiş və bu gün onun əsrələri sənəti qiymətləndirən və musiqi zövqü olan insanlar tərəfindən böyük məhəbbətlə dinlənilir.

***Zümrüd BAYRAMOVA***

# "Hərbi vəzifə və hərbi xidmət haqqında" Qanuna dəyişikliklər edildi

*Cinayət Məcəlləsində, Miqrasiya Məcəlləsində, İnzibati Xətalar Məcəlləsində, "Əhalinin sağlamlığının qorunması haqqında", "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə", "Psixiatriya yardımı haqqında", "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanunun layihəsi parlamentin dünən keçirilən plenar iclasında müzakirəyə çıxarılıb.*




SİA xəbər verir ki, qanun layihəsi müddətli həqiqi hərbi xidmətə çağırılan vətəndaşların tibbi şəhadətləndirilməsi sahəsində göstərilən xidmətlərin optimallaşdırılması və elektronlaşdırılması, habelə hərbi xidmətə çağırışla bağlı müvafiq müddəaların dəqiqləşdirilməsi məqsədilə hazırlanıb.Layihəyə əsasən, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Qanuna "tibbi şəhadətləndirilmə", "elektron kabinet" və "çağırış vərəqəsi" anlayışları əlavə edilir. Layihədə aidiyyəti dövlət orqanları arasında tibbi müayinənin nəticələrinin elektron əldə edilməsi, əlilliyi müəyyən olunmuş çağırışçıların tibbi müayinəsinə dair müvafiq qərarın onların əyani formada tibbi müayinəsi aparılmadan çağırışçıya dair elektron informasiya sistemində mövcud olan məlumatlar əsa-

## Dəyişikliklər nədən ibarətdir?

sında qəbul edilməsi, müvafiq dövlət orqanlarının sistemlərinin qarşılıqlı inteqrasiyası ilə bağlı müddəalar əks olunub.Bundan başqa, layihədə müddətli həqiqi hərbi xidmətə çağırış üçün nəzərdə tutulan son yaş həddinin 35-dən 30 yaşa endirilməsi təklif olunur.Eyni zamanda, layihədə ilkin hərbi qeydiyyatın müddəti, habelə təşkilatlar tərəfindən ilkin hərbi qeydiyyata alınmalı olan vətəndaşların siyahılarının müvafiq icra hakimiyyəti orqanına təqdim edilməsi müddəti uzadılır. Çağırışçılar barəsində çağırış komissiyaları tərəfindən qəbul edilmiş qərarlar onlara 10 gün müddətində deyil, 3 gün müddətində bildiriləcək. Layihədə müddətli həqiqi hərbi xidmətə çağırılmalı olan vətəndaşların tibbi müayinədən keçməsi müddəti çağırışa 2 ay qalmış müddətdə müəyyən olunur.Yuxarıda qeyd olunanlarla yanaşı, layihədə müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilərək hərbi qeydiyyatdan çıxarılan vətəndaşların dairəsi müəyyən olunur və təhsili davam etdirmək üçün çağırışa möhlət verilməsi ilə bağlı maddə yeni redaksiyada verilməklə dəqiq tənzimləmə qanunda əks olunur. Belə ki, bakalavriatda və magistraturada əyani təhsil alan tələbələrə çağırışa möhlət onların müvafiq olaraq 24 və 26 yaşı tam olanadək veriləcək. Dövlət proqramları və tələbə mübadiləsinə dair hökumətlərarası təqaüd proqramları çərçivəsində təhsil alan çağırışçılar istisna təşkil edəcəkdir."Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" Qanuna təklif edilən digər dəyişikliyə əsasən səfərbərlik üzrə hərbi xidmətə çağırışdan möhlət verilməsi haqqında qərar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın informasiya sistemində yerləşdiriləcək və həmin məlumat vətəndaşın tanış olması üçün Elektron Hökumət İnformasiya Sisteminə göndəriləcək.Cinayət Məcəlləsinin 321-ci maddəsinə əlavə edilməsi təklif olunan "Qeyd" hissəsində "çağırışdan boyun qaçırma" əməlinin nədən ibarət olması dəqiq müəyyən olunur. Belə ki, "çağırışdan boyun qaçırma" dedikdə vətəndaşların üzrlü səbəblər olmadan tibbi müayinəyə, müddətli həqiqi hərbi xidmətə, toplanışlara və səfərbərlik üzrə hərbi xidmətə çağırış üzrə gəlməməsi başa düşülür. Buna uyğun olaraq, Miqrasiya Məcəlləsində ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması hallarına yeni halın əlavə edilməsi təklif olunur. İnzibati Xətalar Məcəlləsində çağırışçılar və hərbi vəzifəlilər haqqında aidiyyəti orqanlar tərəfindən məlumatların vaxtında verilməməsinə görə inzibati məsuliyyəti müəyyən edən maddənin dispozisiyası dəqiqləşdirilir və bu inzibati xətaya görə məsuliyyət sərtləşdirilir.Digər qanunlara dəyişikliklər isə "Hərbi vəzifə və hərbi xidmət haqqında" Qanunda mövcud olan müddəalardan və bu layihə ilə təklif edilən dəyişikliklərdən irəli gəlir.Müzakirələrdən sonra qanun layihəsi birinci oxunuşda təsdiqlənib.

# "Nəyin yalan, stereotip, doğru olduğunu təyin etmək bacarığını artırmalıyıq"



"Media savadlılığı cəmiyyətin həyatında mühüm əhəmiyyət kəsb edən amildir. Ən əsası Azərbaycan kimi ölkələr hansı ki, tez-tez xaricdən dezinformasiya hücumlarına məruz qalır. Ölkəmizin ictimai rəyini azdırmaq, ictimai fikri çaşdırmaq məqsədilə müxtəlif kampaniyaların qurbanına çevrilirlər. Məhz, belə halda əsas bizim bu cür dezinformasiya və neqativ hallarla mübarizədə əsas alətimiz media savadlılığının artırılmasıdır. Media savadlılığı nə qədər yüksək olarsa, insanların hər hansı bir dezinformasiya və yaxud da informasiya manupulyasiyalarının təsiri altına düşmə ehtimalı da bir o qədər azalır". Bu sözləri SİA-ya açıqlamasında Medianın İnkişafı Agentliyinin İcraçı direktorunun müavini Natiq Məmmədli deyib.

O bildirib ki, bu baxımdan Medianın İnkişafı Agentliyi sistemli şəkildə fəaliyyət göstərir: "Artıq bu il 2024-cü il dekabr ayında biz 3-cü dəfədir ki, "Media savadlılığı" həftəsi keçiririk. Media savadlılığı həftəsi Azərbaycan mediasının artıq trendinə çevrilmiş bir ənənə funksiyasını yerinə yetirir. Bizim sabah keçirəcəyimiz konfransda da xüsusən Media savadlılığının yüksəlməsində təhsilin rolu və məktəblərdə maarifləmənin daha da intensiv şəkildə qurulmasına diqqət ayrılacaqdır. Media savadlılığı yalnız jurnalistlərin məşğul olduğu bir sahə deyil. Söhbət burada bütün cəmiyyətin, sosial təbəqələrin informasiya savadlılığının artırılmasından gedir.




Rəqəmsal mühitin inkişafı özü ilə pozitiv nüanslarla yanaşı, dezinformasiyanın sürətlə ötürülməsinə də şərait yaradır. Təbii ki, belə bir mühitdə Azərbaycan informasiya məkanını qorumaq, feyk xəbərləri vaxtında aşkar etmək üçün media savadlılığının artırılması çox vacibdir. Bizim informasiya mühitimizə yönəlmiş hər hansı təhdidlərlə mübarizədə media savadlılığı əsas alətdir. Amma onunla yanaşı hüquqi normalarda var. Media etikasının prinsipləri də var ki, buna birmənalı şəkildə əməl edilməlidir. Bizim bu səylərimiz öz nəticəsini verəcək. Orta məktəbdən başlayaraq, media savadlılığının arrtırılması istiqamətində atılan addımlar nəticədə bizim vətəndaşlarımızın informasiyaya münasibətində pozitiv dəyişikliklər yaratmış olacaq. Əsas məqsəd dezinformasiyaların təsirinə düşməmək, həqiqəti bilmək, oxuduğu məlumatı dəqiqləşdirməkdir. Bu baxımdan bu həftə ərzində bizim çoxlu tədbir, konfrans və təlimlərimiz var".

Media eksperti İsmayıl Rafiqoğlu isə qeyd edib ki, media savadlılığının gücləndirilməsi üçün bir sıra qaydaya əməl etmək tələb olunur: "İlk növbədə axtarış sistemi ilə düzgün işləmək vərdişini formalaşdırmalıyıq. Düzgün sözlərin, teqlərin istifadəsi axtarışı xeyli rahatlaşdırır. Digər tərəfdən hər bir məlumata skeptik yanaşmaq düzgün olardı, çünki ən mötəbər mənbələrdə belə yalan xəbər ola bilər. Hər bir mövzuya yanaşma da bəzən illər sonrası dəyişir. Media savadlılığı yerində olmayan birisi çox asanlıqla qarşısına çıxan elə ilk informasiyanı həqiqət kimi qəbul edəcək.

Axtarış sisteminin alqoritmləri hər bir istifadəçi üçün fərdidir. Yəni süni intellekt



bəzən bizə istədiyimiz və ya arzu etdiyimiz nəticəni verir, həqiqi məlumat isə kənarda qalır. Bu səbəbdən daim alternativ mənbələrə müraciət etmək, daha dərin analiz imkanlarından yararlanmalıyıq. Mediada yaradılan bəzi stereotiplər çox vaxt həqiqət kimi qəbul edilir. Stereotip düşüncədən kənar çıxmaq da olmur, çünki real həyatda bir növ "mütləq evə gələn qonağa çay vermək, qarşısına nəsə bir şirniyyat yerləşdirmək" kimi ənənələr nəsildən nəslə ötürülür. Halbuki artıq şəkərin ziyanını hamı bilir, amma yenə də bundan yaxa qurtara bilmirik. Stereotiplər də internetdə yalan təsəvvürlərin artmasına bəzən xidmət edir. Məsələn, ingilislərin hələ də hər gün axşam saat 5-də çay içdikləri barədə stereotip yaşayır. Halbuki Böyük Britaniyada çay dəmləmək ənənəsi artıq yoxa çıxıb. Bir çox insan elə paket çaydan yararlanır. Və ya ispanların ən sevimli idman növünün korrida olduğu barədə stereotip var. Əslində, korrida idman növü deyil, həm də ispanlar daha çox idman olaraq futbolu sevirlər. Bir sözlə, məlumatla rastlaşan zaman asanlıqla nəyin yalan, nəyin stereotip, nəyinsə doğru olduğunu təyin etmək bacarığını artırmalıyıq".

**Seyranə Quliyeva**

RƏYLƏR

# Rusiya Suriyadan getdimi?





***Suriyada hakimiyyətə gələn silahlı müxalifətin lideri Əhməd əl-Şaraa (Əbu Məhəmməd əl-Culani ləqəbi ilə tanınır) ərəb televiziya kanallarına proqram müsahibəsi verərək ölkənin yeni rəhbərliyinin prioritetlərini açıqlayıb. Onun ən səs-küylü etirafı keçmiş prezident Bəşər Əsədə sığınacaq verən Moskva ilə bağlı olub. Əhməd əş-Şaraa əmin olduğu kimi, yeni hakimiyyət Rusiyaya qarşı deyil, lakin onun Suriyadakı əvvəlki siyasətinə yenidən baxılmasını gözləyir. Sızdırılan məlumatlara görə, Rusiya artıq Suriyada iki hərbi bazasını saxlamaq üçün danışıqlar aparır. Bu fonda dünya və regional güclər Bəşər Əsədin irsini rədd edən bir ölkədə nüfuz uğrunda mübarizəyə başlayıb.***




Dəməşqdə hakimiyyət dəyişikliyindən sonra Əbu Məhəmməd əl-Culani ləqəbindən imtina edən və indi özünü Əhməd əş-Şara adlandıran "Həyat Təhrir əl-Şam" qruplaşmasının rəhbəri müsahibəsində dünya ölkələri ilə münasibətlərində Suriya üçün yeni təlimatları açıqlayıb. Dəməşqdə hakimiyyətə gələn silahlı birləşmələrin liderinin "Əl-Ərəbiyyə", "Əl-Hədas" və "Suriya" telekanallarına verdiyi cavablarda əsas mesajı Suriyanın gözlənilən bir zonaya çevrilməsi ilə bağlı bədbin proqnozların əksinə olaraq bildirib ki, yeni hakimiyyət belə bir ssenarinin qarşısını almaq niyyətindədir.

Əhməd əl-Şaraanın bu baxımdan qeyd etdiyi kimi, uzun illər davam edən müharibə və münaqişədən sonra Suriya "daha böyük dağıntılara səbəb ola biləcək yeni zəiflədici münaqişələrə girməyə" tab gətirə bilməz. Onun sözlərinə görə, sülhü və sabitliyi qorumağı qarşısına əsas vəzifə kimi qoyan yeni hökumət "inqilabçı zehniyyəti rəhbər tutmamalıdır". Bütün bunların fonunda Əhməd əş-Şaraa The Washington Post qəzetində dərc olunmuş müsahibəsində Rusiya, İran və İsraillə gələcək münasibətlərə ən çox diqqət yetirərək, bu üç sahənin Dəməşqdə baş verən dəyişikliklərin işarəsinə çevriləcəyini açıq şəkildə bildirib. Müsahibənin əsas məqamları bir vaxtlar prezident Əsədin devrilməsinə imkan verməyən və onun hakimiyyətini demək olar ki, on ilədək uzatan Moskvaya aid olub. Buna baxmayaraq, Əhməd əl-Şaraanın izah etdiyi kimi, bu, Rusiyaya qarşı olmayan, lakin Dəməşqə qarşı siyasətinə yenidən baxılmasını gözləyən yeni Suriya hakimiyyətləri üçün keçilməz maneə ola bilməz.

Onun cavabından belə çıxır ki, təftiş əvvəlki kursdan tamamilə imtina etməyi nəzərdə tutmalıdır. "Ruslar çökməkdə olan Əsəd rejimindən yorulub və Suriyanın yeni rəhbərliyi Rusiyaya yeni münasibətlər qurmaq imkanı verib", - Əhməd əl-Şara deyib. Onun sözlərinə görə, bu baxımdan Dəməşqdə hakimiyyətin süqutundan sonra Suriyanın yeni rəhbərliyi münasibətlərin ümumi maraqlara cavab verəcək yeni mərhələsinə ümid edərək Rusiyaya qarşı heç bir kəskin addım atmayıb.

Bundan əvvəl Rusiya xarici işlər nazirinin müavini Mixail Boqdanov bildirib ki, Moskva "Həyat Təhrir əş-Şam" qruplaşmasının siyasi komitəsi ilə birbaşa əlaqə qurub. O, Suriyadakı Rusiya hərbi bazaları ətrafında yaranmış vəziyyəti şərh edərək deyib ki, onların gələcək taleyi ilə bağlı heç bir qərar verilməyib, lakin Yaxın Şərq regionunda terrorla mübarizə hələ bitməyib və Rusiyanın hərbi mövcudluğu bunda mühüm rol oynayır. Rusiya Suriyanın yeni hakimiyyət orqanları ilə ölkədə özünün iki hərbi bazasının saxlanması məsələsini müzakirə edir. "Moskva hazırda yeni hakimiyyət nümayəndələri ilə Suriyadakı mövcudluğunun saxlanması və Rusiyanın Tartus və Latakiyadakı hərbi bazalarının əvvəlki statusu ilə bağlı danışıqlar aparır. Rusiya tərəfi müvəqqəti təhlükəsizlik təminatlarını təmin edib, ona görə də hərbi bazalar adi rejimdə işləyir", - deyə mənbə bildirib. Türkiyənin xarici işlər naziri Hakan Fidan da ötən həftənin sonunda Rusiyanın Suriyada gələcək hərbi mövcudluğu mövzusunu şərh edərək, "hərbi obyektlərin taleyinin Moskva ilə Dəməşqdə yeni hakimiyyət orqanları arasında danışıqlar çərçivəsində həll olunacağını" təsdiqləyib. "Biz də öz növbəmizdə müşahidə edəcəyik", - deyə türkiyəli nazir əlavə edib.

## Dünya ölkələri yeni hakimiyyətdən nə gözləyir?

Ötən həftə yeni hakimiyyətə məxsus silahlı qüvvələrinin Rusiya bazalarının yerləşdiyi Latakiya və Tartus əyalətlərinə tam nəzarəti bərqərar etdiyini, lakin Tartus və Xmeymimdəki hərbi obyektlərin ərazisinə daxil olmadığı bildirib. Rusiya Suriyanın yeni hakimiyyət orqanları ilə müsbət razılaşmalar əldə etmək imkanını özündə saxlasa da, devrilmiş prezident Əsədin digər əsas müttəfiqi olan İran, görünür, yaxın gələcəkdə belə bir fürsətdən məhrum olacaq. "İranın layihəsi zərərlidir və Suriyada baş verənlər region üçün təhlükəli olan İran layihəsi üzərində qələbədir. Biz İranın Suriyadakı mövcudluğuna son qoya bildik", - Əhməd əl-Şara ərəb televiziya kanallarına müsahibəsində deyib. "Biz İran xalqına qarşı düşmən deyilik. Bizim problemimiz ölkəmizə ziyan vuran siyasət idi", - deyə o əlavə edib və bununla da Tehranla münasibətlərin yenidən başlaması ehtimalını istisna edib.

Bundan əlavə, o, Dəməşqdə hakimiyyət dəyişikliyindən sonra İran varlığına qarşı mübarizə bəhanəsi ilə 500-dən çox hava hücumu həyata keçirən baş nazir Benyamin Netanyahu hökumətinin arqumentlərini "zəif" adlandıraraq İsrailin son hərəkətlərini pisləyib. Eyni zamanda, o bildirib ki, Suriya İsraillə münaqişəyə can atmır. Bu mənada Ankara daha qətiyyətlidir. "Yeni Şafak" qəzetinin yazdığına görə, Türkiyə Suriyada İsrail təyyarələrini ölkənin şimalında fəaliyyət göstərən Kürd Xalq Müdafiə Qüvvələrinə dəstək verəcəyi təqdirdə vurmaq niyyətindədir. Bunun fonunda Rusiyanın geosiyasi rəqibləri – Qərb ölkələri də yeni Suriyada öz təsir dairələri uğrunda mübarizəyə qoşulublar. Almaniya kansleri Olaf Şolz əmin olduğu kimi, Avropa Suriyanın yenidən qurulmasına kömək edəcək. "Suriyanın bir dövlət olaraq suverenliyini və ərazi bütövlüyünü qoruyub saxlaması da vacibdir. Heç bir ölkə başqasının, daha güclüsünün arxası ola bilməz", – o, X sosial şəbəkəsindəki səhifəsində yayımladığı videomüraciətdə deyib: "Bunu təmin etmək yeni rəhbərliyin ən mühüm vəzifəsidir. Onunla bu əsasda işləyəcəyik. Avropa da bərpaya kömək edəcək".

Ümumiyyətlə, Suriyanın yeni lideri var gücü ilə inandırmağa çalışır ki, yeni hakimiyyət nə xarici, nə də daxili siyasətdə radikal hərəkət etməyəcək. Söz verdiyi yeganə müharibə Kaptaqona qarşı müharibə idi. Qərb Əsədi bu dərmanı istehsal etməkdə və bütün Yaxın Şərqdə yaymaqda ittiham edirdi. Əl Culani "inqilabi fəaliyyətdən millət quruculuğuna" keçidin vacibliyindən danışıb. Düzdür, o, bu keçidin necə baş verəcəyi, yeni hakimiyyətin dini və milli azlıqlarla (kürdlər, druzlar, ələvilər, xristianlar) münasibətlərinin necə inkişaf edəcəyi barədə danışmayıb. Amma Qərb artıq açıq şəkildə bəyan edib ki, Suriyanın yeni hakimiyyət orqanları ilə münasibətləri bundan asılı olacaq. Həm Avropa, həm də ABŞ bildirir ki, ölkədə legitimliyi Suriyanın bütün siyasi qüvvələri tərəfindən tanınan hakimiyyətlər olmalıdır.



Və daha bir vacib məqam: Əl-Culani keçmiş hakimiyyətdən qisas almaqdan və ya Əsədin tərəfdarlarına qarşı hər hansı repressiya planlarından danışmayıb. Eyni zamanda o, tezliklə müəyyən sənədlərin dərc olunacağını bildirib. Onların sözlərinə görə, Əsəd rejiminin korrupsiyasına dair sübutlar olacaq.

**V.VƏLİYEV**

# Sevinc Osmanqızı Əli Kərimlini bələdiyyə seçkilərinə qatılmadığına görə tənqid etdi

***Azərbaycanda növbəti seçki hazırlığı işlərinə başlanılıb. Daha doğrusu 2025-ci il yanvarın 29-da bələdiyyələrə növbəti seçkilər keçiriləcək. Əminliklə demək olar ki, azad və demokratik şəraitdə keçəcək bələdiyyə seçkiləri Azərbaycanın müstəqilik tarixinə yazılacaq növbəti uğurlu seçkilərdən olacaq. Seçki hazırlıqlarının uğurla aparıldığı vaxtda diqqətçəkən məqam ondan ibarətdir ki, dağıdıcı müxaliflər arasında seçkilərə münasibətdə fərqli mövqelər var.***

Hətta xaricdəki antimilli ünsürlər də bələdiyyə seçkiləri ilə bağlı Əli Kərimlidən, Gültəkin Hacıbəylidən, Arif Hacılıdan, Cəmil Həsənlidən fərqli mövqe ortaya qoyur, fikirlər səsləndirirlər. Yəni AXCP, Milli Şura və Müsavat bələdiyyə seçkilərinə qatılmamaq barədə adətlərinə uyğun sifarişli mövqe ortaya qoyub, sosial şəbəkələrdə məlumatlar paylaşdıqları halda xaricdəki antimilli ünsürlər, əksinə seçkilərə qatılmağın tərəfdarları olaraq çıxış edirlər. Bu da xaricdəki satqın ünsürlərlə Bakıdakı xainlər arasında ciddi ixtilafların, qarşıdurmaların yaranmasına gətirib çıxarıb.



Elə vəziyyət yaranıb ki, Trol Sadıqlı, Sevinc Osmanqızı, Arif Məmmədov, Məhəmməd Mirzəli, Orduxan Temirxan və bu kimi digər antimilli ünsürlər eyni şəbəkədən qidalandıqları mərkəzlərə Azərbaycanın dağıdıcı müxalifətindən şikayətlər ünvanlayıblar. Xaricdəki satqıların yanaşmasına görə, Azərbaycanın dağıdıcı müxalifəti seçkilər qatılmalı, cəmiyyətə öz seçki platformalarını, ideya və təkliflərini çatdırmalıdırlar. Dünən Sevinc Osmanqızı deyilən ABŞ Dövlət Departamentinin qazanından qidalanan trol öz TV-sində açıq şəkildə bəyan edib ki, Azərbaycanın dağıdıcı müxalifətinin bələdiyyə seçkilərinə qatılmaması sıravi müxaliflərin liderlərdən tamamilə üz döndərməsinə gətirib çıxaracaq. Sevinc Osmanqızı dağıdıcı müxalifət başbilənlərini qorxaqlıda, özlərinə inamsızlıqda da günahlandırdı. Bildirdi ki, siyasi proseslərdən çəkinən partiya sədrlərinin siyasi iddialarla çıxış etməsi yolverilməzdir.

### 24 min 800 dollar dostları düşmənə çevirdi

Sevinc Osmanızının yenidən Əli Kərimlini hədəf seçib, haqqında ittihamlar irəli sürməsi AXCP-də çaxnaşma yaradıb. Çünki S.Osmanqızı xaricdə müxaliflərə maliyyə ayıran şəbəkə təsir edən əsas trollardan hesab edilir. Yəni S.Osmanqızının birbaşa ABŞ Dövlət Departamentinin "Dostlar Klubu"na bağlı şəxs olması, ona müəyyən üstünlüklər qazandırıb. AXCP-də təmsil oluna trolların hər biri maliyyə yardımları almaq üçün mütəmadi olaraq ABŞ-ın "Dostlar Klubu"na layihələr təqdim edirlər. Təbii ki, hər kəs müsbət rəy almaq istəyindədir və bu baxımdan S.Osmanqızının rəyin verilməsinə təsir edə biləcəyindən ehtiyat edirlər. Ona gör də, Ə.Kərimli ilə S.Osmanqızı arasında pozulmuş münasibətlərin daha da gərginləşməsi qrant almaq arzusunda olan AXCP-dəki trollar üçün heç də arzuedilən deyil. Bu baxımdan trol yığnağı S.Osmanqızı ilə kəllə-kəlləyə gəlmək istəmir. Hər kəs dərk edir ki, bir gün Ə.Kərimli yenidən S.Osmanqızına əl uzadar və onların arasında yenidən isti münasibətlər, əməkdaşlıq əlaqələri yaranır. Belə hal yaşansa, bu yerdə onlar S.Osmanqızının gözündən düşən məxluqa çevrilə bilərlər. Məlum faktdır ki, uzun müddət Ə.Kərimli ilə S.Osmanqızı eyni qabdan qidalanıb, eyni tezisləri ifadə etmişlər.

Tərəflər arasında pul bölgüsü üstündə mübahisələri sonda qarşıdurmaya və aralarında əldə olunan sədaqət andının havaya sovrulmasına gətirib çıxartdı. Əldə olunan sənədlərə görə, "Soros" Fondunun Gürcüstan nümayəndəliyi Ə.Kərimliyə 24 min 800 dollar pul vəsaiti ayırıb. Həmin puldan S.Osmanqızına da pay düşməli idi. Lakin acgözlüyü ilə tanınan Ə.Kərimli ayrılan qrant vəsaitindən S.Osmanqızına verməkdən imtina edib. Bu səbəbdən də S.Osmanqızı TV-sində Ə.Kərimlini və ətrafında olan trollarını hər cür sərt ifadələrlə təhqir edir: "Əli bəy və Fuad Qəhrəmanlı bəlli şəxslərin yazdıqları statusları öz adları ilə sosial şəbəkələrdə paylaşırlar. Bu hal rüsvayçılıqdır. Eyni zamanda Əli bəy tək müxalifət lideri olduğunu nümayiş etdirmək üçün digər partiya sədrlərini gözdən salmağa çalışır".

### Fuad Qəhrəmanlı buyruq qulu olduğunu göstərməyə çalışır

Ə.Kərimli S.Osmanqızı ilə mübahisəyə girməkdən ehtiyat etdiyi üçün AXCP-də qara işlərin icraçısı kimi tanınan Fuad Qəhrəmanlını təlimatlandırmaqla önə çıxarıb. F.Qəhrəmanlının S.Osmanqızını "irsi xəstə" adlandırması söz yox ki, Ə.Kərimlinin istifadə etdiyi təhqir elementlərindəndir. Yəni Ə.Kərimlinin hazırladığı, lakin F.Qəhrəmanlının ifadə etdiyi sözlərdəndir. İnandırıcı deyil ki, zəif və qorxaq xarakterə malik birisi olan F.Qəhrəmanlı cəsarət nümunəsi ortaya qoyaraq açıq şəkildə S.Osmanqızını təhqir etsin. Bunu sübut edən dəlil, bir qədər əvvəl F.Qəhrəmanlının S.Osmanqızı haqqında dediyi ifadələrdir: "Sevinc xanım iddia etdi ki, sən demə, bu yazını mənim adımdan kimsə yazıb. Sevinc xanım işarə edir ki, Qənimət Zahidin sözügedən yazımı öz efirindən oxuması Əli bəyin istəyi ilə olub. Əvvəla, o, "Azərbaycan Saatı"nın yutub səhifəsinə və mənim feysbuk profilimə baxıb görə bilər ki, Qənimət bəy bu günə qədər vaxtaşırı olaraq müəllifi olduğum ölkə siyasəti və beynəlxalq münasibətlərlə bağlı geniş təhlil yazılarımı mütəmadi olaraq oxuyur və Əli bəyin bu məsələyə heç bir aidiyyəti də olmur". Göründüyü kimi, Qəhrəmanlı "Əli bəyin bu məsələyə heç bir aidiyyəti də olmur" deməklə Ə.Kərimlini vəziyyətdən çıxartmağa cəhd etmişdir. Lakin "görünən dağa bələdçi lazım deyil" məsəli məhz Əli Kərimli kimi saman altdan su yeridənlər üçün deyilib. Hər kəsə gün kimi aydındır ki, Ə.Kərimli kənarda dayanıb, trollarını qabağa verməklə zamanında "dost" dediyi şəxsləri gözdən salmağa çalışır. Ona görə də, F.Qəhrəmanlının Ə.Kərimlini təmizə çıxartmağa cəhd etməsi uğursuz cəhddən başqa bir şey deyil. Artıq S.Osmanqızı da daşların hansı istiqamətdən və kimlər tərəfindən ona atıldığını yaxşı bilir. Ona görə bütün mümkün vasitə və üsullardan istifadə edərək, ona yamanlıq edənlərdən qisasını almağa çalışır. Bu qovğa və qarşılıqlı ittihamların isə hələ uzun müddət davam edəcəyi şübhəsidir. O zamana qədər ki, hər ikisinin üzv olduğu, hər zaman maddi və mənəvi yardımlar aldıqları mərkəzi ofis rəhbərliyi onlara barmaq silkələsin və "qurtarın bu didişməyi" xəbərdarlığını etsin. Həmin vaxt Ə.Kərimli və S.Osmanqızı düşmənçiliyə son qoyub, həya və abır etmədən yenidən aralarında heç nə olmamış kimi bir-birinə xoş münasibət sərgiləyib, eyni verilişdə sərsəm sayıqlamalarını səsləndirəcəklər.

***İLHAM ƏLİYEV***



# Vasili Koltaşov: "Fransa Ermənistanı yeni müharibəyə hazırlayır"





***Roman Quryeviç: "Yaxşı olar ki, Paris öz evində hər şeyi qaydasına salmağa başlasın, "Olimpiya oyunlarında "mavi"liyi şirinləşdirmə" kimi biabırçı siyasətindən qurtulsun"***

Ermənistanın hərbiləşdirilməsinin arxasında duran əsas qüvvələrdən biri Fransadır, bu fikri bir müddət əvvəl Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının xarici siyasət şöbəsinin müdiri Hikmət Hacıyev bildirib. Parisin revanşist əhval-ruhiyyənin səngimədiyi İrəvana hərbi-siyasi dəstəyini nə dərəcədə fəal şəkildə artırdığına baxsaq, bununla razılaşmamaq çətindir.

**Rusiyalı politoloq, Yeni Cəmiyyət İnstitutunun direktoru Vasili Koltaşov** "caliber.az"-a şərhində qeyd edib ki, Nikol Paşinyan "Ermənistanla KTMT-ni heç nə birləşdirmir" deyəndən sonra deyə bilərik ki, İrəvan indi başqa komandada oynayır. Onun artıq öz bossu var- Fransa. Bu boss isə Ermənistanı yeni müharibəyə hazırlayır- bu fakt şübhə doğurmur.

"Ermənistan Rusiyaya maksimum problem yaratmaq üçün regionda müstəqil qüvvəni təmsil edənlərə qarşı mübarizə aparacaq. Və ola bilsin ki, Tbilisi ilə Moskva arasında yaxınlaşma olarsa, Ermənistan anti-Gürcüstan siyasətini inkişaf etdirəcək. Və təbii ki, aydındır ki, bugünkü Ermənistan Azərbaycana qarşı revanşist əhval-ruhiyyəyə malikdir- burada Ermənistan hakimiyyəti eskalasiyadan da imtina etmir, bu dəfə Qərbin daha konkret köməyinə ümid edir.

Bəzi analitiklər Ermənistanın aktiv şəkildə yenidən silahlanmasına balanslaşdırıcı bir hərəkət kimi baxmağa meyllidirlər, çünki Azərbaycan açıq şəkildə hərbi cəhətdən daha güclüdür. Amma biz görürük ki, "balansın tənzimlənməsi" deyilən şey İrəvandan idarə olunmur, kənardan, Qərbdən həyata keçirilir və regionda yeni hərbi münaqişəyə səbəb ola bilər. Çünki Qərbin region üzərində təsir rıçaqlarına sahib olmaq üçün Cənubi Qafqazda müəyyən gərginlik zonası yaratmaq kimi aydın məqsədinin olduğu göz qabağındadır",- deyə V.Koltaşev yekunlaşdırıb.

**Dünya Yəhudi Agentliyinin fəxri səfiri Soxnut, israilli politoloq və jurnalist Roman Quryeviç** əmindir ki, Fransa Cənubi Qafqazda sabitliyi pozan əsas amillərdən biridir.

"Otuz illik Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı zamanı Fransa ATƏT-in Minsk Qrupu çərçivəsində erməni maraqlarını təşviq edərək Cənubi Qafqazda ədalətin və beynəlxalq birliyin qanunlarının bərpası üçün faydalı iş görmək şansını əldən verib. Ona görə də indi o, kobud imperiya üsulu ilə hərəkət edərək regionda öz təsirini bərpa etməyə can atır- parçala və hökm et. Fransa Azərbaycanın sülh müqaviləsi bağlamaq səylərini asanlaşdırmaq əvəzinə Ermənistanda revanşist əhval-ruhiyyəni dəstəkləyir. Paris Ermənistanı silahla təmin edir, erməni hərbçiləri Fransada hazırlanır, Fransa isə dünya birliyinin nümayəndəsi kimi həll edə biləcəyi problemləri həll etmir- məsələn, insanların ölməkdə davam etdiyi mina sahələri problemini.

Paris Ermənistanı özünün sadiq oyuncağına çevirmək üçün öz təsirindən istifadə etməkdə davam edir, eyni zamanda İranla ənənəvi isti münasibətləri inkişaf etdirir. Və burada Fransa Ermənistandan ötürücü halqa kimi istifadə edir. Yəni Qərb dünyası İranın nüvə təhlükəsini dayandırmağa çalışarkən, Fransa öz oyununu oynayır.

Beləliklə, Fransanın siyasətdəki hazırkı vektoru nə qədər pisdirsə, bir o qədər yaxşıdır. Axı davam edən münaqişələrin qanlı burulğanında hər zaman siyasi üstünlük əldə etmək olar. Yaxşı olar ki, Paris öz evində hər şeyi qaydasına salmağa başlasın, "Olimpiya oyunlarında "mavi"liyi şirinləşdirmə" kimi biabırçı siyasətindən qurtulsun, sabit hökumət yaratsın və istər-istəməz uğursuzluğa düçar olduğu yerdə başqalarının işinə qarışmasın". R. Qureviç yekunlaşdırdı.

***Tərcümə - Elçin Bayramlı***




# Körpələrinizdən ana südünü əsirgəməyin



***Dünyaya uşaq gəlir, həyatımızı bəzəyir. Evlərimizə sevinc, təntənə bəxş edir. Nəslimizin artmasına, yaşamasına xidmət edir bu balaca varlıqların dünyaya gəlişi. Sevinirik, şadyanalıq edirik. Onun ilk qidası süddür-ana südü. Minlərlə irili-xırdalı vitaminləri özündə birləşdirən, uşağın sağlam böyüməsində, dincliyində, sakitliyində, yuxusunda, bir sözlə, günlük həyat tərzində, gələcəyində böyük əhəmiyyətə malik olan ana südü. Dəfələrlə danışmışıq bu barədə. Lakin görünür ki, hələ də azdır. Uşağına süd verən anaların sayı gündən-günə azalır. Belə isə biz heç susmayaq...***

## Kolostrum körpənin ilk peyvəndidir

Amerika Pediatriya Akademiyasının tövsiyəsinə görə, körpə ilk 6 ay ərzində yalnız ana südü ilə qidalandırılmalı və bu, ən azı 1 yaşa qədər davam etdirməlidir. Ümumdünya Səhiyyə Təşkilatı da körpələri ana südü ilə qidalandırmağa doğuşdan bir saat sonra başlamağı, 2 yaş və ya daha uzun müddətə davam etdirməyi məsləhət görür.

Ana südü yenidoğulmuşlar və körpələr üçün optimal qidalanmanı təmin edir. O, lazımi miqdarda qida maddələrinə malikdir və asanlıqla həzm olunur.

Araşdırma apararkən mütəxəssis Cəmilə Hacızadənin qarşıma çıxan elmi məqaləsində oxuyuram ki, ana südü ifrazolunma müddətinə və tərkibinə görə kolostrum, keçid südü və yetkin süddən ibarətdir. Kolostrum doğuşdan sonra ilk 5 gün ərzində ifraz olunan, qatı və sarımtıl rəngli süddür. Tərkibində az yağ və laktoza var. O, xüsusən infeksiya əleyhinə xüsusiyyətə malik zülallarla zəngindir. Kolostrum immunoqlobulinlərlə zəngin olduğundan yeni doğulmuş körpəni xarici mühitin patogen amillərindən, yəni mikroorqanizmlərdən qoruyur. Həmin xüsusiyyətinə görə kolostrum körpənin ilk peyvəndi olaraq qəbul edilir. Həmçinin yeni doğulmuş uşağın formalaşmamış həzm sisteminin inkişafına kömək edir. İlk bir neçə gündən sonra körpənin mədəsi böyüdükcə ananın orqanizmi daha çox süd istehsal etməyə başlayır.

Ana südü körpələr üçün ideal qidalanmanı təmin edir. Ana südü ilə qidalanma körpənin bir sıra xəstəliklərə tutulma riskini azalda bilər, onun çəkisini sağlam şəkildə artırır. Ana südü mühüm antitellər ehtiva edir, uşaqların zehni inkişafında böyük əhəmiyyətə malikdir.

## Körpəyə iki il ana südü verilməlidir

Müqəddəs kitabımız olan "Quran" surələrinin 11 ayəsində, xüsusən, Bəqərə surəsində açıq şəkildə deyilir: "Körpələrinizdən ana südünü əsirgəməyin. Doğulandan sonra tam iki il ona süd verin".

Ana südü Yaradanın insana, anaya verdiyi ən gözəl təbii nemət və körpəyə verilən ən təhlükəsiz və dəyərli qidadır. Bir vaxtlar tibb ana südünün yalnız körpənin 4, sonralar 6 ayına qədər verilməsini əsas sayırdısa, dünya təbabəti bu gün bu vaxtın iki ilə qədər uzadılmasını elmi əsaslarla tövsiyə edir. Belə isə hər bir ananın vəzifəsidir ki, dünyaya gətirdiyi övladını öz südü ilə qidalandırsın. Ana südünün körpəyə nə qədər vacib olması əsrlər boyu sübut olunmuş və hər birimizin təcrübəsində özünü doğrultmuşdur.

Təəssüf ki, bu gün tez-tez anaların körpələrinə süd verməkdən imtina etmələri kimi hadisələrlə qarşılaşırıq. Çox ana südünün olmadığını bəhanə gətirərək əslində bədən formasının pozulmaması üçün övladına bu qidanı çox görür. Lakin əvvəllər belə deyildi. Ananənələrimiz vardı ki, hələ gəlinizı yenicə hamilə olan vaxtdan ta doğuşa qədər evlərdə maariflənmə aparır, ana südünün faydalarından danışır, ana olacaq qadını elə yetişdirirdi ki, o, birinci vəzifəsi kimi körpəsinə ana südünü verməli olduğunu dərk edirdi. Beləliklə də uşaq dünyaya gələndən sonra ona aldığı tövsiyələrlə elə yanaşırdı ki, həm uşaq normal əmməyi öyrənirdi, həm də südü



davamlı gəlirdi.

Lakin müasir dövrümüzdə necədir? Hazırda anaların süd verməkdən imtina etməsində bütün cəmiyyət kimi, həm də onların böyüklərinin günahı var. Tanıdığım bir qadının qızı heç bir il deyil ki, ikinci dəfə ana olub. Anası ona tövsiyə edirmiş ki, nə badə körpəyə süd verəsən, "fiquran" korlanar. Bu söhbəti eşidəndə, günlərlə ona məzəmmət etdim. Çünki məsləhət verən ana müəllim idi. Bir müəllimin bu təfəkkürə malik olmasını əsla həzm edə bilmirdim. Lakin gənc ana qayınanasının tövsiyəsi ilə körpəsini ancaq ana südü ilə qidalandırmağa başladı. Hazırda uşağın bir yaşının tamam olmasına bəlkə də bir aydan az vaxt qalır. Hələ də o körpə ana südündən başqa qıda dadmayıb. Çox sağlam bir uşaqdır. Bax, bu cür onlarla nümunələr çəkmək olar. Düşünəndə ki, gənc ananın heç bir təcrübəsi yoxdur, biz böyüklər ona hansı tövsiyə və məsləhəti versək, onunla razılaşacaq, bəs belə isə nə üçün faydalı məsləhətlər verməyək?

Düzdür, həmişə yazılarımda vurğulamışam ki, internet həyatımıza daxil oldu-olmadı, onu alt-üst etdi. Gənc analar internet vasitəsilə süd verməklə fiquralarının pozulacağını öyrənirlər. Bunu analıq hissindən kənar, övladının sağ-



lamlığını gözəl görünməyə qurban verən ana deməzdim, qadınlardan öyrənirlər. Lakin analarımız arasında buna məna verməyəni də var, beynində saxlayıb ana olan kimi həyata keçirəni də var. Odur ki, Azərbaycanda körpəyə süd verməmək, südü qəsdən qurutmaq kimi hallar çoxalıb. Elə bu səbəbdən də ana olan qadınlarımızın az faizi, yəni 50 faizi körpəsini ana südü ilə qidalandırır. Lakin nəzərə alsaq ki, ana südü hazır qidadır, bəzən gecə yorğunluğu bəhanə gətirib körpəsini qidalandırmaq istəməyən analara bir sual vermək istəyirəm: gecə uşaq oyanıb ağlayanda onu qucağına alıb hazır ana südü ilə onu qidalandırmaq rahat və yaxşıdır, yoxsa qalxıb mətbəxə gedib, su isidib, süni yemək hazırlayıb gətirib uşağı qidalandırmaq yaxşıdır? Ana gələnədək də uşağın ağlamaqdan yuxusu pozulur. Yesə, qarnı doysa da, nə özü yatır, nə də ana. Hansı sənə sərf edər? Həqiqətən, ağıllı başla, məntiqlə düşünəndə hazır yeməyi qoyub insan özünə nə üçün bu qədər zülm edir, anlamıram. Həm də süni yeməklərin tərkibini, övladımızın sağlamlığı üçün zərərli olduğunu bilə-bilə...

Unutmayaq ki, yeni doğulmuş körpənin heç olmazsa, 6 aya qədər əmizdirilməsi ilə hər il 1000 uşağın ölümünün qarşısı alına bilər.

## Yarı uşaq, yarı ana

Körpənin ana südü ilə əmizdirilməsi 50 faiz uşaq üçün əhəmiyyətlidirsə, 50 faiz də ana üçün faydalıdır. Belə ki, ana südü ilə qidalandırma ilkin olaraq körpəni qulaq infeksiyalarından, ishal, pnevmoniya və digər xəstəliklərdən qoruyur. Döş xərçəngi, yumurtalıq xərçəngi və diabet riskini azaltmaqla həm də analar üçün faydalı olur?

Uzun müddət ana südü ilə qidalandırma uşağı orta qulaq, boğaz və sinus infeksiyalarından, həmçinin çoxsaylı tənəffüs və mədə-bağırsaq xəstəliklərindən qoruyur. Hətta 6 ay ərzində yalnız ana südü ilə qidalanan körpələrdə ciddi soyuqdəymə məruz qalma, eləcə də qulaq və boğaz infeksiyalarına tutulma, ani körpə ölümü sindromu, astma, atopik dermatit və ekzema, diabet, leykozun yaranması riski daha az olur.

Ana südü ilə qidalanma sağlam çəki artımına kömək edir və piylənmənin qarşısını alır. Araşdırmalar göstərir ki, 4 aydan çox ana südü ilə qidalanma körpənin artıq çəki və piylənmə riskini əhəmiyyətli dərəcədə azaldır. Bu, müxtəlif bağırsaq bakteriyalarının inkişafı ilə əlaqədar ola bilər. Ana südü ilə qidalanan körpələrdə çox miqdarda faydalı bağırsaq bakteriyası var ki, bu da yağların depolanmasına təsir edir. Ana südü ilə qidalandırılan körpələrin orqanizmində süni qida ilə qidalanan körpələrə nisbətən daha çox leptin var. Leptin iştahanı və yağ yığımını tənzimləyən əsas hormondur.

Ana südü uşaqların zehni inkişafına təsir edir. Araşdırmalar nəticəsində müəyyən olunub ki, ana südü ilə qidalanma körpələrin uzunmüddətli beyin inkişafına əhəmiyyətli dərəcədə müsbət təsir göstərir. Həmçinin ana südü ilə qidalanan körpələr daha yüksək intellektə malik olur və böyüdükcə öyrənmə çətinliyinə, eləcə də davranış problemlərinə daha az məruz qalırlar.

Dünyada hər 10-cu qadın süd vəzisinin xərçəngi və uşaqlıq boyunun xərçəngindən əziyyət çəkir və bu, dünyada qadın ölümünə səbəb olan xəstəliklərin ilk sıralarındadır. Məhz Azərbaycan qadınlarında da bu xəstəliyin olması və yayılması ürəkaçan deyil. Dünya təcrübəsi göstərir ki, süd vəzisi xərçəngini ilkin mərhələdə aşkarlamaqla onun gələcək inkişafının qarşısını almaq mümkündür. Bu xəstəlik və ümumiyyətlə, cəmiyyət arasında belə xəstəliklərə qarşı maarifləndirmə işləri aparılmalıdır. Maarifləndrmənin əsas məqsədi odur ki, həmin xəstəliyin ilkin nəticələrini aşkar edən qadın həkim müayinəsindən keçir və xəstəlik erkən dövründə aşkarlandığı üçün müalicə olunur. Körpəsini ana südü ilə qidalanan qadınlarda bu xəstəliyin olma təhlükəsi digər süd verməyən qadınlara nisbətən azlıq təşkil edir. Odur ki, UNİSEF ana südü ilə əmizdirmənin təbliği ilə bağlı çox böyük işlər aparır. Bu təbliğatı evdə, iş yerində, xəstəxanalarda hər kəs gənc qadınlar üçün aparmalıdır ki, onlar özlərini hansı təhlükə ilə üz-üzə qoyduqlarını anlasınlar. Həm özlərini, həm də körpələrini xilas etsinlər.

Beləliklə, ana südü ilə qidalandırma həm uşaq, həm də ana üçün faydalıdır. Yaxşı olar ki, gənc analar fiqura, görünüş məsələlərini bir kənara qoyub bu barədə düşünsünlər.

**Mətanət Məmmədova**

PSİXOLOQ FİKRİ

# Bıçaqlayan da bizdəndir, bıçaqlanan da



***Uşaq tərbiyəsi və uşaq təhsili bir-biri ilə əlaqəli olan anlayışlardır. Bu aspektdən məktəb-valideyn əməkdaşlığı da mühümdür. Uşaq tərbiyəsi gözəl əxlaq, nümunəvi insan və müsbət insani dəyərlərə aparan prosesdir. Müəyyən bir fənn üzrə bilik, bacarıq və təcrübə əldə etmək isə təhsil anlayışına daxildir. Yəni valideynin evdə başladığı tərbiyə metodu məktəbdəki təlim-təhsil metodu ilə uyğunlaşmalıdır, biri digərinin təməlidir çünki. Təhsilin tətbiqi mexanizmi yaxşı ola bilər, tərbiyə də qüsursuz verilə bilər, amma nəticə qaneedici olmaz. Təəssüf ki, indi məktəblərdə təhsil uğurlarından çox zorakılıq xəbərləri gündəmə gəlir.***

PROBLEM

Məktəbdə zorakılıq son illər çox rastlaşdığımız vəziyyətdir. Zorakılıq, bəzi hallarda bullinq daha güclü bir uşağın zəif və ya kiçik uşağa, həmçinin bir qrup uşağın təklədiyi bir uşağa qarşı kobud davranışıdır. Bullinq, alçaltmaq, təhqir etmə, uşağı təkləmək, haqqında yalan uydurmaq, əşyalarına zərər vermək, izləmək, fiziki və psixoloji təzyiq göstərmək formalarında özünü büruzə verir. Oğlanlar adətən bir nəfər tərəfindən, qızlar isə qrup həmyaşıdı tərəfindən bullinqə məruz qalır.

Bullinq digər kollektivlərdə də baş verir, lakin məktəblərdə buna rast gəlmək daha təhlükəli vəziyyətin xəbərçisidir. Bəzən zorakılığı və bullinqi yeniyetməlik zamanı baş verən təbii proses kimi xarakterizə edirlər. Lakin zorakılığı heç bir halda böyümə dövrünə xas bir xüsusiyyət hesab etmək olmaz. Əgər uşağınız zorakılığın qurbanı olarsa, bullinqə məruz qalarsa bu onda bərapası mümkün olmayan emosional və psixoloji travmaya səbəb ola bilər.

Ümumiyyətlə, şagirdin bullinqə məruz qalması məsələsi həmişə aktual olan məsələdir. Bəzən mediadan kənar qalan hadisələr də olur ki uşaqların təhlükəsizliyi səbəbindən gizli saxlanır. Qızlara qarşı cinsi qısnama edən məktəbli oğlanlar, bullinq edən həmyaşıdı olan qızlar əksər hallarda yaşlarının az olması səbəbindən cəzasız qalırlar. Ən yaxşı halda valideynlər məktəbə çağırılıb xəbərdarlıq edilir, ən pis halda məktəbdən xaric edilərək başqa məktəbə göndərilir. Beləcə ayaqlı bəla məktəb-məktəb dolaşır.

Məktəblərdə ən böyük boşluq nədir, bilirsinizmi? Müəllim avtoritetinin yoxa çıxması. Müəllim kimi ali bir ünvanı sıxışdıra-sıxışdıra yazıq görkəmə saldılar. Müəllimi elə yazıqlaşdırdılar ki, uşağa söz deməyə risk etmir. Daha müəllim nə təhsil verir, nə təlim verir, nə də tərbiyə. İşi-gücü səhərdən-axşamacan lüzumsuz kağız-kuğuz işlərini bitirmək, jurnal yazmaq, summativ yoxlamaqdır. Başını qaldırıb sinifə baxa bilmir ki, nə baş verdiyini görsün. Onun bu halı ailəsindən tərbiyə, nəzarət görməyən şagirdlər üçün göydəndüşmə fürsətdir.

Cinsi zorakılıqlar, təcavüz, pedofiliya, narkomaniya faktları da məktəblərimizdə yetərincədir. Şagirdinə cinsi orqanını çəkib göndərən direktorlar da gördük, şagirdinin bədəninə toxunmağa cəhd edən müəllimlər də. Bütün bu hallar aşkarlandıqca yalnız bir açıqlama verilir: "Tədbir görülür". Bəs hanı o tədbirlərin nəticəsi? Niyə düzəlmir məktəblərdəki vəziyyət? Şagirdlər müəllimin üzünə üfürür siqaretin tüstüsünü. Bütün səlahiyyətləri əlindən alınmış müəllim nə edəcək bu vəziyyətdə?



Məktəblərdə özbaşınalıq baş alıb gedir. Şagirdlər məktəbə təsbehlə, bıçaqla gəlir. Kəpənək deyilən bıçaq növü ilə qısnama, hədələmə hərəkətləri etməyə meylli olan nəsil yetişib. Onlar bıçaqla lovğalıq edirlər, qısnama zamanı hədə-qorxu gəlmək üçün istifadə edirlər. Məktəblilərin üzərindən dəfələrlə beşbarmaq deyilən təhlükəli alət aşkarlanıb, məktəblilər bir-birini yaralayır, bir-birini öldürür, bundan daha faciəvi vəziyyət ola bilərmi?

Uşaqlar saytlardan zorakılıq təbliğ edən oyunların simvolu olan silahları sifariş edirlər. Daha sonra sifariş edilən silahları məktəbə gətirib sinif yoldaşlarına paylayırlar. Məktəblər və məktəb rəhbərliyi zorakılıq nümayiş etdirən uşaqları asanlıqla müəyyən edə bilir. Bunun üçün sinif rəhbəri, məktəb psixoloqu, məktəblinin dostu var. Xüsusilə də məktəbdə çalışan psixoloqlara çox mühüm vəzifə düşür. Belə uşaqların nəzarətdə saxlanılması, onların ailələrinin məlumatlandırılması, kəsici və deşici, zərərverici alətlərin məktəbə daxil olması ilə bağlı ciddi tədbir görülməsi zəruridir. Hər nə qədər müvafiq nazirlik bununla bağlı tədbir görüldüyünü desə də, baş verən hadisələr sübut edir ki, əslində, vəziyyət təhlükəli həddi çoxdan ötüb.

Səbəblər çoxdur, amma deməliyik ki, bu hadisələrdə ən böyük məsuliyyət və günah valideynlərin üzərinə düşür. Məktəbdəki şagirdlər valideynlərin əsəridir, onların verdiyi tərbiyəni nümayiş etdirir. Bir sözlə şagird ailənin məktəbdəki inikasıdır. Biz uşağımıza tərbiyə verməsək, heç bir məktəb, heç bir müəllim onu düzəldə bilməz. Sağlam gələcək psixi və fiziki cəhətdən sağlam uşaqlar deməkdir. Bugünkü vəziyyət onu deməyə əsas verir ki, biz gələcəyimizi artıq itiririk. Təəssüf ki, bu, belədir.

Zənnimcə, sırf məktəbdəki hadisələrlə bağlı ciddi cəza sistemi yaratmaq lazımdır. Maarifləndirici, tənbehedici söhbətlərlə bu problemlər həll edilməyəcək, illərdir bunun şahidi oluruq. Bullinq cinayət hesab edilmir və bu da uşaqları arxayınlaşdırır, onları tərbiyə edə bilməyən valideynləri rahatlaşdırır. Bullinq edən uşaqların valideynləri ən uzağı məktəbə çağırılır, danlanır. Nəticə olurmu? Əlbəttə ki, yox. Uşaqlar atdığı addımın nələrə səbəb olacağını anlamalıdır nəhayət. Onlar bilirlər ki, etdiklərinə görə uzaqbaşı danlanacaqlar, amma əvəzində çəkib paylaşdıqları video ilə baxış sayı, aktivlik əldə edəcəklər.

Cinayət Məcəlləsinin 20-ci maddəsinə görə, əgər 14 yaşı tamam olmuş uşaqlar qəsdən adam öldürməyə, qəsdən sağlamlığa az ağır və ağır dərəcəli zərər vurma, zorlama, soyğunçuluq, quldurluq, adam oğurlamağa, seksual xarakterli zorakılıq hərəkətlərinə, hədə-qorxu ilə tələb etməyə, talama məqsədilə qanunsuz olaraq avtomobil və ya başqa nəqliyyat vasitəsi ələ keçirməyə, terrorçuluğa, adamları girov götürməyə, ağırlaşdırıcı hallarda əmlakı qəsdən məhv etməyə, narkotik vasitələri və ya psixotrop maddələri talamağa və digər cinayətlərə görə cinayət məsuliyyətinə cəlb edilə bilərlər. Onlar islah-əmək koloniyalarına göndərilirlər.

Bəs bullinq edən uşaqlar necə olur? Onlar haqqında hansı tədbirlər görülür? Təcrübə göstərir ki heç bir tədbir göstərilmir. Söhbətlə, tənbehlə düzəlməyəcək bu uşaqlar, buna əmin olun. Daha sərt tədbirlər görülməlidir . Bullinqə məruz qalan və özünü öldürən – yüksəklikdən atlayan, kəndirdən asılan, dərman içən uşaqların həyatının yarıda qırılmasının bir cəzası olmalıdır.

***Lalə Mehralı***



# "İndiki şəraitdə media həm də güclü silahdır"

***"Media savadlılığı dövlət orqanları, ictimaiyyət, media orqanlarının fəaliyyəti üçün və media mənsublarının öz funksional fəaliyyətlərini daha düzgün qurması üçün olduqca əhəmiyyətli bir gündəm mövzusudur". Bu sözləri SİA-ya açıqlamasında siyasi şərhçi Aydın Quliyev deyib.***

O bildirib ki, nəzərə alsaq ki, müasir şəraitdə süni intellektin imkanları misilsiz şəkildə geniş olduğunu daha parlaq, qabarıq şəkildə nümayiş etdirməkdədir: "Belə şəraitdə media savadlılığının daimi və fasiləsiz şəkildə gündəm mövzusu kimi saxlanılması və bu mövzu üzərində işlənilməsi olduqca vacibdir. Media savadlılığı həm dövlət, həm cəmiyyət, həm də media orqanlarının özü üçün vacibdir. Çünki bu, birinci növbədə dövlət, cəmiyyət və vətəndaş fəaliyyətinin daha səmərəli şəkildə qurulması üçün dəqiq və dürüst informasiyaların nə qədər önəmli rol oynadığının dərk olunmasından ibarətdir. Əgər dediyim subyektlər - dövlət, vətəndaş, cəmiyyət dəqiq informasiyaların rolunun nədən ibarət olduğuna lazımi qiymət vermirsə, belə şəraitdə informasiya savadlılığı demək yarımçıq şəkildə dərk olunan mövzudur. Digər tərəfdən informasiya mənbələri ilə ən effektiv əməkdaşlıq mexanizmlərinin qurulması da media savadlılıq çərçivəsində nəzərdən keçirilməli olan istiqamətlərdən biridir.

Ən obyektiv və dəqiq informasiya mənbələrinə əlçatanlığın təmin olunması media azadlığının bizim nəzərimizcə vacib istiqamətlərindən biri sayılır. Eyni zamanda cəmiyyətin media savadlılığı cəmiyyət və media orqanlarının ilk növbədə feyk informasiyanın dəqiq informasiyalardan ayırmaq bacarığı və təcrübəsi deməkdir. Həqiqətən, media savadlılığı lazımi səviyyədə deyilsə, insanlar çox vacib olan dürüst informasiya ilə feyk informasiyanı bir-birindən ayıra bilməyəcəklər. Burada vacib olan odur ki, cəmiyyət, insanlarımız feyk informasiyanın təsiri altına düşməzdən əvvəl bu informasiyanın nə qədər dürüst, dəqiq və hansı mənbələrdən gəldiyinə diqqət yetirsinlər. Bunlara da media savadlılığı anlayışının müəyyən səviyyədə dərk olunması sahəsində nail olmaq mümkündür. Çünki indiki şəraitdə informasiya həm də güclü silahdır. Bu silahı yaxşı məqsədlə də, pis məqsədlə də işlədənlər var. Bu şəraitdə süni intellektin imkanlarını da əlavə etsək, informasiyaların hazırlanması, yayılması və auditoriyalara çatdırılmasının ən effektiv mexanizmlərinin tapılması olduqca vacibdir ki, buna da yalnız media savadlılığı ilə nail olmaq mümkündür. Media savadlılığından məhrum olan cəmiyyəti istənilən istiqamətdə yönəltmək mümkündür. Media savadlılığı lazımi səviyyədə olmayan cəmiyyətin rəyini istənilən istiqamətdə yönəltmək çox təəssüflər olsun ki, hətta dövlət və ictimai mənafelərin əleyhinə də yönəltmək mümkündür".

"Biz indi müəyyən xarici mərkəzlərdən Azərbaycanın ictimai və dövlət maraqlarına qarşı, idarəçilik əlehinə, vətəndaşların milli-mənəvi hissiyyatlarına və milli-mənəvi dəyərlərinə qarşı nə qədər dezinformativ hücumların təşkil olunduğunu görürük. Təcrübə göstərir ki, bu dezinformativ hücumların böyük əksəriyyəti məhz media savadlılığının lazımi səviyyədə olmadığı səbəbdən hədəflərə dəyə bilir. Belə şəraitdə media savadlılığı həm cəmiyyətin özünün yanlış informasiyaların təsiri altına düşməkdən ən etibarlı sığorta mexanizmidir, eyni zamanda dezinformasiya ilə süni intellektin zərərli imkanları ilə Azərbaycan cəmiyyətinə xaricdən təsir göstərmək istəyən mərkəzlərin fəaliyyətini neytrallaşdırmağın ən gözəl üsuludur. Media savadlılığı dövlətə, ictimai mənafelərə, medianın özü üçün əvəzsiz əhəmiyyətə malik olan bir institutdur" - deyə o, əlavə edib.

***Söylü Ağazadə***

# İki əl, bir baş

Felyeton

***Hə, indi qızını ərə verərkən cehizinin üstündə diplom da olmadısa, ta bunun nə faydası. Heç elə bil nə əziyyət çəkib banklara kreditə girib o dəbdəbəli toyu eləmisən, nə də yenə banklara kreditə girib o boyda cer-cehizi yığmısan. Asan iş deyil ey, Allah verərsə, iki-üç nəvən olacaq, hələ sən biçarə o kreditləri ödəyib qurtara bilməyəcəksən.***

Axı, bax, bu misal haradan ortaya çıxıb ki, bizim də qanımıza işləyib? Misala bax: qonşu qonşuya baxar, canın odlara yaxar. Ay qardaşlar, ay bacılar, niyə baxırsınız? Axı atababalarımız bizə başı aşağı olmağı tövsiyə edib gediblər. Sal başını aşağı, qohum-qonşunun yanından keç. Sənə kim deyir ki, başını qaldırıb görəsən ki, qonşu ikimərtəbəli ev tikdirib. Sən də düşəsən sevdaya ki, yox ey, necə, nə təhər edim ki, onun tikdiyi evdən mən də tikim. Məgər mən ondan kəsir oğlanam ki, hasarın o tərəfindən onun evi boylana, mənim evim də hasarın içində itə.

Hə, nə edirik? Axı qonşudan fərqli olaraq nə əlimizdə, nə də ovcumuzda var. Düşürük bank-bank, deyirik görək hansı aşağı faizlə pul verir, götürək başlayaq. Banklar da ki, Allah onlara insaf versin, nə dinləri var, nə də imanları. Faizi eşidəndə neçə ildən bəri alıb, hələ də yeniləyə bilmədiyin papaq da özünü atır yerə. Amma çarə nədir? Nəyin bahasına olursa-olsun, bu pul götürülməli, o ev tikilməlidir. Sonrası həmişəki klassik düşüncəmiz: Allah kərimdir.

Hə, pulu götürdük, başlayırıq evimizi bir mərtəbə də artırmağa. Qonşununku qədər olmasa da, ona yaxın bir şeyə oxşadırıq. Səhəri qonşunun yanından keçəndə isə elə bir havada oluruq ki, gələsən, görəsən.

Bu qonşu da ki, Allah saxlamış, haradan alır, haradan tapır bu pulu, nə bilim axı. Bir təhər ki, dişini-dırnağını sıxıb evi qurtarmışdın ki, bir də görürsən qonşunun qapısının ağzında bir maşın. Ə, bu nədir, ə? "Buna bax, maşınına bax",- deyirsən və içini-içini yeyir. Yenə o köhnə papağını qabağına qoyub başlayırsan fikirləşməyə ki, necə edim, bir babatını da mən alım. Amma ala bilmirsən axı. Kreditin var. Çox düşünüb, çox daşınandan sonra deyirsən ki, ə, var, var da. Qoy gedib bu səfər də arvadın adına kredit götürüm. Üz tutursan yenə banklara. Yaxşı, bunu da bir təhər həll edib, alırsan bir maşın, qoyursan qapının ağzına, olursan qonşu ilə bərabər. Amma necə bərabər? Bax bunu deyə bilmirəm.

Günlər keçir, arvad deyir ki, ay kişi axşam gələndə konfetdənzaddan bir kilo al, gedək qonşuya, deyir qızı məktəbə girib. Ay Allah, bax, müsibət bu dəfə başlayır, özü də necə başlayır. Ta kişi kiriyərmi, susarmı məgər?

-Hə, xalxın da uşaqları var, mənim də. Bax ey, gör camaatın balasının səsi haralardan gəlir. Bizimkilərə də oxu deyəndə, canları çıxır. İndi bu gündən baxassız gününüzə, yaxşı.

Nə isə, axşam da gedirlər qonşuya gözaydınlığı verirlər. Qayıdırlar evə. Bu dəfə də düşürlər diplom sevdasına. İlişirlər uşaqların canına. Başlayırlar onları hazırlığa qoymağa. Nədi, nədi ki, bunlar bal toplayıb bir məktəbə girsinlər. Uşaq deyir, ay dədə, vallah mən riyaziyyatdan heç nə anlamıram. Ata deyir ki, qələt edirsın, öyrənməlisən. Qız deyir ki, ay ana, vallah, nə qədər edirəm kimyadan, fizikadan bir şey başa düşmürəm. Ana deyir ki, heç nə olmaz, bəs müəllim nədən yanadır, qoyuruq hazırlığa ki, öyrənəsən də.

Hə, bax, belə-belə bir də baxdıq ki, dəbdəbəli toy, cehiz kimi, diplom da dəbə düşdü. Camaat başladı bir-birinin bəhsinə uşağını oxutmağa. Uşaq



oxudu-oxumadı, gedir hazırlığa, valideyn də başlayır yeməyindən, əynindən-başından kəsib hazırlıq pulunu ödəməyə. Vaxt gəlir, baxırlar ki, vay, bu uşaq üç-dörd ildir hazırlığa gedib, topladığı bala bax. Bu dəfə də valideyn deyir, əşi, ta nə edim ey, düşür düşsün də ödənişliyə, çarə nədir, bir təhər oxutduraram. Yenə də başlayır bank-bank gəzməyə. Hara gedir, banklar od tutub yanır. "Çarə yoxdur ey, qonşunun oğlu keçən il girib məktəbə, qızı da bu il. Sinifdə universitetə girməyən qalmayıb. Mənimki niyə geridə qalmalıdır?",- deyib, götürür pulu aparıb ödəyir məktəbə. Uşaq da olur tələbə.

Elə ki, məktəblərin açılmasına az bir zaman qalır, yenə valideynin kürkünə birə düşür. Axı dərd bir deyil, iki deyil? Bunun əyni-başı var, qalmağa yeri var, yeməyi-içməyi var, dəftər-qələmi var, başqa məsələləri var...

Gün o gün olur ki, uşaq universiteti sürünə-sürünə, bir təhər bitirir. Elə bu ərəfə də ata krediti bitirir. Zalım bu qonşu da dayanmaq bilmir də. Bir də eşidirlər ki, uşağı düzəltdi filan yerə işə. Vəssalam, dərd başladı. Arvad başlayır danışmağa, ta kiriмək bilmir: bu uşağa bir iş tapa bilmədik. Balam gül kimi məktəb bitirib oturub evdə. Xalxların da uşağı odur ey, gör, haralarda işləyir.

Yaxşı, bunu eşidən ata nə eləsin? Uşaq da ki, nə işə qəbul imtahanı verəndi, nə də oturub təzədən qabağına kitab-dəftər tökəndi. Olan-qalan hövsələsini də 4 il universitet əlindən alıb.

Ata düşünür ki, yox ey, yenə bir banka baş çəkim, görüm faizlər indi necədir, pul götürüm bu uşağa bir iş tapım. Düşür bank-bank yenə də gəzir, axır biri ilə razılaşıb, pul götürür. Sonra da fikirləşir ki, İlahi-pərvərdigara, mən bu pulu indi kimə etibar edib verim ki, işimi görsün, birdən bir nadürüstə rast gələrəm, pulum batar, it də gedər, ip də. Artıq bu, qalır Allaha, qarşına ya dürüst biri çıxa, pulunu alıb işini görə, ya da nadürüstü çıxa, pulunu alıb aradan itə.

* * *

Hə, kişi başlayır dərd çəkməyə, fikir eləməyə. Arvad da o tərəfdən qayıdır ki, ay kişi, axı eviydi də oturmuşduq, nəyimizə lazımdı bu ikimərtəbəli ev? Heç yuxarı qalxan da yoxdur. Kişi də başlayır çığırmağa: az, dünənədək sən deyildin, gündə qonşunun evinə, bax, deyən? İdi nə artistlik edirsən?

Sonra arvad görür ki, fikir bu kişini yıxacaq, kişi də kreditləri arvadın üstünə yıxıb gedəcək, düşür qorxuya, başlayır danışmağa. Axı bu maşın nəyimizə lazım idi? Birtəhər ötüşürdük də.

Bu dəfə də kişini cin vurur:- Ay Allah, amansan, heç xəbərin yoxdu ki? Gündə-gündə başımı xarab edən sən deyildin ki, xalxın arvadı maşınlarda gəzir, mən də bazardan qollarımda sizə yemək daşıyıram?

Bir gün də arvad görür ki, yox ey, ta bu kreditlərin əlindən evdə bişirməyə də bir şey tapmır. Başlayır yenə deyinməyə:- Axı uşaqdı da, dedi ki, ata məni qoy dərzilik öyrənim, oğlan da dedi ki, ay ata, elm mənlik deyil, qonşuluqdakı Həsən kişi yaxşı maşın ustasıdır. Qoy məni onun yanına, gedim öyrənim. Dedin ki, yox ey, gərək diplomunuz olsun. İndi nə zəmanədir ki, qonum-qonşunun uşağı təhsil ala, siz də sənət öyrənəsiniz.

Bu dəfə kişi dəli olmasın, bəs nə etsin. O tərəfdən qayıdır ki, arvad, səsini kəs. Məni qızışdırıb ortaya salan sən deyildin? İndi başlamısan ayrı söz danışmağa. Sənə baş qoşan yerdə başım batardı, deyib, iki əli ilə başına bir qapaz endirir.

* * *

Amma nə faydası? Banklara kredit kredit üstündədir, ay da ki, elə başlamağı bilir, bir də görürsən ki, kreditin vaxtı çatıb. Zənglər dalbadala düzülüb. İndi gəl, başını itirmə görüm, necə itirmirsən. Əlində-ovcunda nə var, ver banka, otur, əlini aç Allaha, ruzi istə. Vallah, həqiqətən də bizimki Allaha qalıb. Allah köməyimiz olsun.

***Mətanət Məmmədova***



Lalə Mehralı

# Media savadlılığı vacibdir?

***Kütləvi İnformasiya vasitələri insanlara informasiya axınının təmin edilməsində əsas rol oynayırlar. Təsadüfi deyil ki, KİV öz tarixi boyunca cəmiyyəti idarə etmənin ən güclü silahı hesab edilib. Yeni nəsil mediaya, sələfi olan mətbuatın yerini ustalıqla ələ almış, şaxələnmiş və cəmiyyəti tam öz nəzarəti altına almış xələf deyə bilərik. Yeni nəsil media həyatımıza girəndən sonra çap orqanları, televiziya və radio öz yerini online media ilə paylaşmalı oldu. Əvvəl teleqraf, teleqram, faks, teletayp, məktub, qəzet, radio ilə informasiya ötürülürdü, internet həyatımıza girəndən sonra isə saytlar, portallar, son illərin trendi olan sosial şəbəkələr də media vasitələrinə çevrildi.***

Media, informasiya və xəbər axınını təmin etməklə cəmiyyəti məlumatlandırmaq, xəbərdar etmək və maarifləndirmək vəzifəsini yerinə yetirir. Medianın verdiyi imkanlardan - televiziya, radio, saytlar, qəzetlər, sosial şəbəkələrdən alınan məlumatların məqsədini və düzgünlüyünü araşdırmaq isə oxucunun ixtiyarına buraxılır. Xəbər qaynağının çox olması bu sahədə ciddi xaos yaradır, bir media orqanının dediyini başqası inkar edir, birinin qara dediyi şeyə digəri ağ deyir, beləcə oxucu öz savadı, məntiqi, analizi və zəkası sayəsində doğrunun hansı olmasını ayırd edə bilir. Bəzən də bu qənaətin yaranması o qədər uzun çəkir ki, bu prosesdə olduqca böyük mübahisələr və səhv anlaşılan vəziyyətlər yaranır.

Ənənəvi medianın yeni və qeyri-ciddi qolu olan sosial media - şəbəkələr jurnalistikada özünə geniş yer açmağa davam edir. Smartfonlar, planşetlər, kompyuterlər, noutbuklar kimi virtual dünyaya qoşula bilən müxtəlif qurğular sayəsində istənilən adam özünün xəbər platformasını yaradır, informasiya istehsal edir, ötürür və yayır. Bu, bir tərəfdən yaxşıdır, insanlar öz problemlərini daha geniş auditoriyaya çatdıra, həllinə daha tez nail ola bilirlər. Bir tərəfdən isə pisdir, əsası olmayan, şaiyə, dedi-qodu məlumatlarının ictimai arenaya ayaq açmasına səbəb olur.

Yeni media vasitəsi ilə informasiya kütləyə daha sürətli və daha geniş şəkildə çatsa da, ənənəvi media konkret auditoriyaya çatmağa imkan verir. Yəni birinin sürətli və geniş məlumat ötürmə üstünlüyü var, lakin dəqiqliyi və etibarlılığı yoxdur, digərinin isə hesablanmış auditoriyaya çatmaq imkanı var, lakin dəqiqliyinə və səhih məlumatlılığına şübhə yoxdur.

Yeni nəsil medianın bizə qazandırdıqları ilə əlimizdən aldıqları arasında hesablama aparsaq itirdiyimizin sayı çox olacaq. O, asılılıq yaradır, yanlış məlumat ötürür, əsilsiz xəbərlər istehsal edir, şəxsi məlumatlar üçün təhlükə ehtiva edir, peşəkarlığı yoxdur. Bu da təbii ki insanları çaşdıra bilər, səhv yönləndirər. Media savadlılığı olmayan insanlar üçün bu, əsl təhlükədir.

Sosial şəbəkələrin hər gün yenisinin həyatımıza soxulması nəinki bizə, hətta uşaqlarımıza da təhlükə yaradır. Xüsusilə pandemiyadan sonrakı dövrdə uşaqların smartfon asılılığının pik həddə çatması, social şəbəkələrə, virtual dünyaya həvəslərinin artması onların media savadlılığının olmasını vacib edir. Əslində media savadlılığına bu gün insanların əksəriyyətinin ehtiyacı var, çünki o oxucunu medianın mənfi təsirlərindən qoruyur, mediadan təhlükəsiz və şüurlu şəkildə istifadə etməyin yollarını öyrədir. Media savadlılığı insanlara mediadan aldığı məlumatların və təlimatların məqsədini təhlil etmək, onların düzgünlüyünü araşdırmaq bacarığı verir. Hər gün daha çox insanın kibercinayətkarlığın qurbanı olması, fırıldaqçıların toruna düşməsi göstərir ki, bizim cəmiyyətdə media savadlılığı aşağı səviyyədədir.

Qısası, kütləvi informasiya vasitələri iki cəbhəyə bölünüb - ənənəvi media və yeni nəsil media. Birincilər peşəkarlardan ibarətdir və etibarlı mənbə vəd edir, ikincilər isə daha çox reytinq, baxış, qazanc naminə hər şey uydura biləcək potensiala sahib olanlar. İkisi arasında döyüş gedir, texnologiya və inkişaf ikincilərə daha çox meydan verir, sosial şəbəkələr bu döyüşdə əli güclü olan tərəfdir. Sosial şəbəkələr xəbər istehsalına başladığı vaxtdan bu belədir, vətəndaş jurnalistikası peşəkar mediadan çox şey oğurladı. Bu, dopinq içib döyüşə çıxmağa bənzəyir, özündə olmayan gücü, etibarı süni şəkildə yaratmaq, sabun köpüyünə bənzər şöhrət əldə etmək, sonda isə zəfərin saxta olmasına şahid olmaq kimi.

Media cəmiyyətin düşüncə və yaşayış tərzinə ciddi təsir göstərə bilir, biz medianın həyatımıza girdiyi dövrdən bəri bunu müşahidə edirik. Media cəmiyyətin baxışlarını və davranışlarını formalaşdırmaq gücünə malikdir və çox böyük silahdır. Bu silahdan necə istifadə etmək isə xəbər istehsalçısının peşəkarlığına, xəbər istehlakçısının media savadlılığının ümidinə qalıb.



# Makronun oyuncaqları

***Fransada hökumət böhranı özünün pik həddinə çatıb. Makronun atdığı antidemokratik addımlar ölkənin siyasi həyatını iflic edib. Parlament seçkilərində qalib gələn partiyaların heç biri hökumətin qurulmasında iştirakdan uzaqlaşdırılıb. Prezident Makronun partiyası parlamentdə sayca üçüncü yerdə güclə duruş gətirir. Müxalif partiyalar isə nəinki qanunverici orqanda, ümumiyyətlə ölkənin idarə olunmasında söz sahibi kimi çıxış etmək istəyirlər. Amma məğlub partiyanın təmsilçisi olan Makron president kürsüsünün ona verdiyi səlahiyyətlərdən öz partiyasının xeyirinə istifadə etməkdə qərarlı görünür. Ona görə də parlamentdə sayca üstünlük təşkil edən partiyaların heç birinə baş nazir təyin etmək imkanı verilmir. Makron veto hüququndan istifadə edərək müxalif namizədlər hamısını rədd edir və baş nazir kimi özünün rəva bildiyi namizədi irəli sürür. Müxalif partiyalar isə Makronun adamları ilə işləmək istəmirlər.***



Bu yaxınlarda Makron Mişel Barnieri baş nazir təyin etmişdi. Barnier neç nə ilə yadda qalmasa da, V respublikanın ən qısa ömürlü baş naziri kimi "titular" sahiblənməyi bacardı. Bu gün isə Demokratik Hərəkat (MoDem) partiyasının rəhbəri, keçmiş nazir və dəfələrlə prezidentliyə namizəd olmuş 73 yaşlı Fransua Bayru Fransanın baş naziri təyin edilib. Təcrübəli mərkəzçi siyasətçi həddindən artıq sağ və solçu olmadan parlament çoxluğunu səfərbər etməli olacaq. Prezident Emmanuel Makron yeni baş nazirin adını açıqlayacağına söz versə də onun kimliyini gizli saxlayırdı. Çünki yeni baş nazirin "ölü doğulmasını" istəmirdi.



Nəticədə, yeni hökumət başçısının adı açıqlanana qədər Mişel Barnierin əvvəlki hökumətinin istefasından tam on gün keçdi. Hökumətə Pireneyanın Pau şəhərinin meri, kəndlilərin dostu, dindar katolik, altı uşaq atası və on iki nəvə babası olan 73 yaşlı Fransua Bayrou başçılıq edəcək. Bu, sürpriz kimi görünə bilərdi, amma bütün həftə Bayrunun adı orabura gəlirdi – həm onu indiki prezidentin çox yaxın müttəfiqi hesab edən solçuların lənətlərində, həm də sağ tərəfin ehtiyatlı qiymətləndirmələrində.

Fransua Bayrou Fransa siyasətində müntəzəmdir. Demokratik Hərəkat Partiyasının (MoDem) rəhbəri, keçmiş ədliyyə naziri (2017) və təhsil naziri (1993-1997), üç dəfə - 2002, 2007-ci illərdə Fransa prezidentliyinə seçkilərdə iştirak edib (namizədliyi üçüncü olub). 2012-ci ildə sol sosialist Segolene Royala və sağ Nicolas Sarkozy üçün real alternativ olmaq şərəfinə sahib olub. 2017-ci ildə siyasətçi gənc namizəd Makronun lehinə prezidentlik ambisiyalarından əl çəkib və Avropa Parlamentinin vəsaitlərindən sui-istifadə halı olmasaydı, onun dövründə yaxşı ədliyyə naziri olardı. Milli Cəbhə (RN) funksionerlərinin və şəxsən Marin Le Penin həyatını məhv edən də indiki baş nazirdir. Ədliyyə Nazirliyində bir ay dörd gün işlədikdən sonra Fransua Bayrou istefa verib. O, bundan sonra bəraət qazanıb, hazırda qanuni olaraq "təmiz"dir. Müşahidəçilər də belə qənaətdədirlər ki, onun baş nazir postunu tutmasına heç nə mane olmur.

Düzdür, Fransua Bayrou vəzifəyə Emmanuel Makron və bütövlükdə iqtidarda olan partiya üçün çox əlverişsiz bir vəziyyətdə başlayır. O, etimadsızlıq səsverməsindən qorxmadan işləyə bilmək üçün spektrin hər yerindən siyasətçilərə yanaşmalar tapmalı olacaq. Tutaq ki, mərkəzin lütfü onun cibindədir. Siyasətçi həmişə sosialistlərə kifayət qədər yaxın olub, sağçı sarkozçulara qarşı birləşib. Fransua Bayrounun hətta bir vaxtlar prezidentlik kampaniyasında dəstəklədiyi şəxsən Marin Le Penlə də yaxşı münasibəti var. Amma şübhəsiz ki, ifrat sağın lideri bunu xatırlayır. Marin Le Pen əlbəttə ki, artıq "makronizmin davamının" "dalan və uğursuzluğa" gətirib çıxaracağı barədə xəbərdarlıq edib və yeni baş nazirdən sələfinin etmək istəmədiyi şeyi etməyi: müxalifəti dinləməyi tələb edib. Ən azı bunlar Fransua Bayrounun təyinatı xəbərindən dərhal sonra həddindən artıq solçuların düşərgəsindən və onların müttəfiqlərindən eşidilən açıq müharibə elanları deyil. Yaşıllar Partiyasından (EELV) deputat Marine Tondelier, baş verənləri "Bu, siyasət deyil, tabloid teatrıdır" deyib. Milli Assambleyadakı "Unbowed France" (LFI) parlament qrupunun rəhbəri Mathilde Panot birbaşa gələcək hökumətə etimadsızlıq səsverməsi ilə hədələyib.

Fransua Bayrounun Emmanuel Makronun siyasətini açıq şəkildə dəstəkləməsi ehtimalı azdır. Cümə günü, təyinatdan əvvəlki son görüşdə, onunla demək olar ki, iki saat vaxt keçirib. Lakin o, açıq-aydın LFI radikallarının şantajına tab gətirməyəcək. Fransua Bayrou hökumət başçısının iqamətgahına yollanarkən Yelisey sarayında toplaşan jurnalistlərə deyib ki, hamı insanları birləşdirən və onları ayırmayan yolun olduğuna ümid edir. Təqaüddə olan baş nazir Mişel Barnier onun gəlişini gözləyir. Fransua Bayrou jurnalistlərə deyib: "Məncə, hamı işin mürəkkəbliyini başa düşür". Və yekunlaşdırdı: "Mən inanıram ki, barışıq lazımdır".

## Yeni baş nazir Fransua Bayrou nə ilə məşhurdur?

Dekabrın 13-də Demokratik Hərəkat Partiyasının MoDem-in 73 yaşlı rəhbəri Fransua Bayru Fransanın baş naziri təyin edilib. Onun tərcümeyi-halının təfərrüatları belədir ki, Fransua Bayrou 25 may 1951-ci ildə Sərhəd kommunasında (Akvitaniya) anadan olub. 1974-cü ildə III Bordo Universitetinin klassik ədəbiyyat fakültəsini bitirib, orta məktəb və universitet müəllimləri üçün ən yüksək ixtisas imtahanından keçib. Daha sonra Bern əyalətindəki kənd məktəbində tarixdən dərs deyib.

1979-1981-ci illərdə Fransa Kənd Təsərrüfatı Nazirliyində işləyib. 1982-ci ildə o, sağ mərkəzçi Fransa Demokratiyası İttifaqının (UDF) tərəfdarı oldu. 1998-2007-ci illərdə isə UDF prezidenti seçilib. 2007-ci ildə o, sağ mərkəzçi Demokratik Hərəkat (MoDem) partiyasını yaradıb və ona rəhbərlik edib. 2004-cü ildən o, ümumavropa siyasi birliyi olan Avropa Demokratik Partiyasının (EDP) həmsədri vəzifəsində çalışır.

1986-cı ildən Fransa Milli Assambleyasının (parlamentin aşağı palatası) üzvüdür, burada 1993-cü ilə qədər savadsızlıqla mübarizə üzrə parlament qrupuna rəhbərlik edib. 1993-1997-ci illərdə - Təhsil Naziri. 2014-cü ildə o, Akvitaniyadakı Pau şəhərinin meri vəzifəsini icra edib.

O, bir siyasətçi kimi "xalqın namizədi" imicinə malikdir və rəqiblərini elitizmə görə tənqid edir. Özünü mərkəzçi mövqedən tutur, sağ və sol siyasi cinahların mübarizəsini köhnəlmiş və zərərli hadisə hesab edir. Dövlət xərclərinin azaldılması, iş yerlərinin yaradılması, yoxsulluqla mübarizə və təhsil standartlarının yüksəldilməsi tərəfdarıdır. Avropaya inteqrasiyanı və Fransanın Aİ lideri kimi rolunu dəstəkləyir. Ailəlidir, altı övladı var. Siyasət və tarixə dair bir neçə kitabın, o cümlədən Fransa kralı IV Henrix haqqında kitabın müəllifidir. O, hobbi kimi atlar yetişdirir.

**V.VƏLİYEV**

# Tanrıya açıq məktub- 1-ci hissə

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*

## (fəlsəfi esse)

***Öncə eşq olsun Sevimli, Mərhəmətli, Ədalətli, Qüdrətli və Söhrətli Uca Tanrıya!***

Ki, O Qüdrətli Yaradan, ilahi sevginin və ilahi gözəlliyin son aspekti, hamının axtardığı Mütləq Həqiqət, Sonsuz Hakimiyyət Sahibi kimi saysız dünyaları ədalətlə idarə etmək iqtidarında olduğunu kainatın quruluşundakı mükəmməl nizam və möhtəşəm qanunauyğunluqla isbat edir.

İkincisi, artıq Özün bilirsən ki, Səni Maddi Kainatın ucqarlarında yerləşən Süd Yolu Qalaktikasının bir kənarında qərarlaşmış Günəş Sisteminin 3-cü planetindən-Yerdən narahat edirəm.

Üçüncüsü, ey Uca Tanrı, əvvəlcə bu günahkar bəndənin başından və yaşından yekə danışmağını, təklif, xahiş və müraciət etmək hüququndan sui-istifadə cəhdini bağışla.

Dördüncüsü, əgər böyük maddi və ruhi kainatların, saysız məxluqatın qlobal işlərindən vaxt tapa bilsən, bu aciz və biçarə bəndənin məktubunu da sonadək oxumağını xahiş edirəm.

Bu cəsarəti özümdə ona görə tapdım ki, Məzlumların Son Pənahı olmağın haqda, göndərdiyin bəzi müqəddəs kitablardan bəzi məxfi məlumatlar əldə etmişəm. Məxfi ona görə deyirəm ki, bəzi dinlərin bəzi savadsız xadimləri bəzi müqəddəs kitablarda yazılan bəzi aşkar söhbətləri başa düşməyib bəzi təbəələrin bəzi provakasion sualları qarşısında aciz qalanda bəhanə edirlər ki, guya Sən bu sözləri qəsdən sirli və gizli kodla yazmısan və ona görə də hər adam başa düşmür.

Amma mən Sənin demək olar ki, bizə göndərdiyin məsləhətlərin toplandığı bütün kitabları (Avesta, Baqavad-Qita, Tövrat, Zəbur, İncil, Quran və s.) oxumuşam və belə qənaətə gəlmişəm ki, əslində bu kitablarda sirli və kodla yazılmış heç bir söhbət yoxdur. Hər şey çox sadə və anlaşılandır. Çünki Sən bu kitabları ən savadsız bir bəndənin də anlaması və xilas olması üçün göndərmisən. Sadəcə, adamda gərək bir az məntiq, bir az dərrakə, bir az da maraq ola ki, bu sadə həqiqətləri anlaya. Təəssüf ki, Sənə tapınmayan bəzi adamların hərəsində bu şeylərdən biri və ya bir neçəsi çatışmır

Ulu Tanrım, dünya və bəni-insan yaradıldığı gündən bəri öz ruhi görmə qabiliyyətini xeyli məhdudlaşdırıb. Öz gözümüzün qabağındakı ilahi möcüzələri görməyib, Sənin yaratdığın şeylərdə "oşibka" axtarırıq. Biz miskin biçarələr anlamırıq ki, bu kainat, bu dünya, bu insanlar, bu heyvanlar, bu bitkilər, bir sözlə gördüyümüz hər şey elə möcüzədir. Bu boyda möcüzələri qoyub, hələ də varlığına inanmaq üçün primitiv "möcüzələr" axtarırıq.

Bir para adamlar da, Səni xalq içində tamam rüsvay etməklə məşğuldurlar. Yəqin bilməmiş olmazsan ki, bu adamlar üzdə özlərini Tanrı bəndəsi kimi göstərib, əslində Şeytana itaət edirlər. Haman bu məxluqlar bir çox yerlərdə müxtəlif biabırçı həngamələr çıxarmaqla, əslində, Sənin guya ağılsız və mazoxist olduğunu cəmaətə sübut etmək istəyirlər.

Məsələn, ora-bura Sənin müqəddəs adlarını yazıb, hamıya göstərirlər ki, görürsünüzmü Tanrı var (?). Gah məsum bir balığı tutub üstündə mismarla Sənin Adını cızırlar, gah da zoopark şirinin acından nərildəməsini Sənin adını çəkmək kimi qələmə verib dini şou düzəldirlər...




Güman ki, Özün də bilməmiş deyilsən ki, əslində, bu spekulyasiyalar Səni cılızlaşdırmaq və ağılsız kimi qələmə vermək cəhdləridir. Yoxsa ki, Sənin nəyinə lazımdır ki, mübarək adlarını ora-bura yazasan, yainki, heyvana-zada dedirdəsən.

Neçə min illərdir müdriklər "Tanrı" deyə bağırır, heç onları vecinə alan yoxdu, indi bu skeptik məxluqlar bir vəhşi heyvanamı inanacaqlar? Və yaxud da yaratdığın dünyanın, kainatın hər yerinə elə imzan qoyulmayıbmı? Bu boyda imzanı görə bilməyən bəndələrin elə balaca və şübhəli cızma-qaralaramı inanacaqlar?

Mən bilirəm ki, Sən özünü belə ucuz reklam etməzsən və buna ehtiyacın da yoxdur. Əgər özünü xalqa göstərmək istəsən, elə mərdi-mərdanə çıxarsan meydana və deyərsən ki, ey günahkar bəndələrim, Mən burdayam, əgər Məni görə biləcək gözləriniz varsa, baxın. Bizim bir çoxumuz da heç nə görmərik, çünki hələ o səviyyədə kamilləşməmişik. Sən maddi olmadığından bəşər oğlunun maddi gözləri Səni görə bilməz. Səni görmək üçün ən yüksək kamillik və müdriklik səviyyəsinə çatmaq, ruhi gözü açmaq lazım gəlir. Bu gözümüzü də elə kor ediblər ki, onu açmaq hər adamın işi deyil.

Üstəlik, bəzi din xadimlərinin dediyinə görə, Səni heç kim heç vaxt görməyib və görə də bilməz (?!). Ateistlər də bundan istifadə edib, orda-burda Sənə qarşı əks-təbliğat kampaniyası aparırlar ki, bir halda ki, Onu heç kim görə bilməyib, onda biz necə əmin olaq ki, Tanrı var?

Materialist elm hələ də Sənin varlığını "rəsmən" təsdiq etməyib, baxmayaraq ki, bunu təsdiq edən saysız hesabsız elmi faktlar var. Alimlərimiz teleskop-filan kəşf edib kainatda Səni axtarırlar, amma tapa bilməzlər!

Bizi bu müvəqqəti dünyaya göndərdikdən sonra neçə-neçə elçi göndərdin ki, bizə doğru yolu göstərsinlər. Möhtəşəm möcüzələr göstərdilər, amma yenə adamlar Sənə inanmadı.

Hər ümmətə elçini öz içlərindən göndərirsən, onlar da onu uşaqlıqdan adi insan kimi tanıyırlar, sonra da onun ilahi elçi olduğuna şəkk edirlər. Bundan əlavə göndərəndə qoltuğuna Kitab verib göndərmirsən, vəyhlə, nə bilim mələk-filan vasitəsilə danışırsan. Onlar da Sənin Sözlərini başlayırlar öz ümmətlərinə çatdırmağa.

Bunun üstündən də bir çox zaman keçdikdən sonra, adamlar o sözləri təhrif edirlər. Ona görə də, mənim bir təklifim var, ey böyük Yaradan, gəl bu sözləri qəribçiliyə salma, bir də nə vaxtsa bizə elçi, kitab göndərmək istəsən belə elə: Birincisi, yaxşı olar ki, elçi yer əhlindən olmasın, ikincisi elə möhtəşəm möcüzələr göstərsin ki, adamların ağzı açıla qalsın, üçüncüsü Kitabı hazır şəkildə və elə materialdan düzəldib göndərmək lazımdır ki, nə odda yansın, nə suda batsın, nə redaktə oluna bilsin, nə başqa formada korlana bilməsin, dördüncüsü Səni inkar edənə və Şeytana uyana elə bu dünyadaca ağır cəza ver ki, başqalarına dərs olsun. Bəlkə o zaman bu camaat Sənə tam inanar və Yer üzündə yenidən Qızıl Dövr bərqərar olar.

***(Ardı olacaq)***
***Elçin Bayramlı***



MÜNASİBƏT

***"Biz Ermənistanla münasibətdə həmişə bu regionun təhlükəsizliyini təmin etmək, sülhün bərqərar olunması istiqamətində regionun inkişafı naminə məntiq, konstruktiv və beynəlxalq normalar çərçivəsində çalışırıq və gözləyirik. Lakin buna baxmayaraq bu gündə Ermənistanın qeyri-konstruktiv münasibəti düşünürəm ki, Ermənistanın müstəqil siyasət yürüdə bilməməsindən irəli gəlir. Eyni zamanda havadarlar axtarışında olan Ermənistanın siyasəti havadarların tutduğu mövqe və bu regionda gedən proseslərə münasibətindən asılılığıdır". Bu sözləri SİA-ya açıqlamasında hərbi ekspert Şair Ramaldanov deyib.***

# Ermənistanın 2025-ci ildən gözləntiləri NƏDİR?

Şair Ramaldanov sözlərinə belə davam edib: "Ermənistan böyük güc mərkəzlərinin region maraqlarında həmişə alovlana biləcək bir dövlətə çevrilib. 4 il bundan əvvəl Azərbaycan ərazi bütövlüyünü bərpa etdikdən sonra 1974 -1975 ci il xəritələrin keçmiş Sovet Respublikaların coğrafi sərhədlərinə çıxaraq şərti sərhəd kimi tərtib edilmişdir. Hətta Ermənistan əvvəl bununla razılaşaraq delimitasiya, demorkasiya məsələləri




ilə bağlı komissiya yaranıb işə başladı və Qazax rayonunda bunun müsbət nəticələrini gördük. Prinsip cəhətdən Ermənistanın bundan sonra bu istiqamətdə inkişaf edəcəyini gözləyirdik. Sülh müqaviləsinin bağ-



lanması ilə bağlı yaxın razılıqlara yol açılmışdı, ancaq bütün bunlara baxmayaraq Ermənistanın siyasəti həmişə olduğu kimi sülh müqaviləsinin bağlanmasında bir addım irəli iki addım geri prinsipi ilə yanaşır.

Azərbaycan isə sülh müqaviləsinin bağlanmasında beynəlxalq normalar çərçivəsində, ali tələblərə cavab verən real faktlara və gələcəkdə sülhü təmin edə biləcək şəkildə görür və sülh müqaviləsini sülh üçün bağlanması istiqamətində addımlar atır. Ermənistan əvvəl bəndlərlə, sonra isə faizlərlə razılaşmağı dedi. İndi isə iki müddəanın razılaşması barədə danışılır. Əgər bir dövlətin digər dövlətdə ərazi iddiası varsa orda sülh müqaviləsi bağlana bilməz. O ki qaldı bizim Ermənistandan gözləntilərimiz nədir? Bizim regiona dünyada gedən proseslər çox ciddi təsir edir. Əlbətdə böyük ölkələrin müasir, geosiyasi arenada dünya coğrafiyası öz maraqlarına uyğun bölüşdürülməsinin və son zamanlar yaxın Şərqdə, Suriyada, Ukraynada baş verən hadisələr bundan xəbər verir, hətta bunun davamıda gözlənilir. Bunlar hamısı böyük gücə malik ölkələrin kiçik dövlətlərin siyasətini istədikləri kimi idarə etmək arzusudur. O ki qaldı bizim regionda bu rolu Ermənistan oynayır. Təbii ki regionun inkişafına, çiçəklənməsinə və logistik orta dəhliz yolu sayılan Zəngəzur xəttinin gecikdirilməsi əlbəttə bu gün Ermənistanın vəziyyəti gərginləşdirməsinə yönəlmiş təhlükəli qeyri- stabil siyasəti nəticəsində olur.

Düşünürəm ki, cənab Prezident İlham Əliyev 2025 – ci ilədək Ermənistanla münasibətləri beynəlxalq norma çərçivəsində və Azərbaycanın maraqlarına uyğun olaraq sülh istiqamətində sülh müqaviləsinin bağlanması və Şuşa bəyannaməsində hər üç ölkənin öhdəlik götürdüyü bəndlərin həyata keçirilməsinə yönəldəcək".

***Ayşən Vəli***

SON SƏHİFƏ
SƏS
17 dekabr
2024-cü il


# "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!




# "Hətta ata-analar belə sizin əmlakınızı sizə verməyə bilərlər"

## MÜNASİBƏT

*"Son illər baş verən ailə münaqişələrinin əsas səbəblərindən biri də ata, ana, qaynana, qaynatadan qalan var-dövlət uğrunda mübarizədir". Bu sözləri SİA-ya açıqlamasında yazıçı-kulturoloq Aydın Xan Əbilov deyib. O bildirib ki, təəssüflər olsun ki, nikahların pozulması zamanı əksəriyyət daha çox uşağı düşünmür, ancaq qaynana, qaynatadan qalma daşınan və daşınmaz əmlakın bölünməsi ilə bağlı məhkəmələrə müraciət edir: "Hətta uşaqları silah kimi istifadə edən daha çox qadınlara, son vaxtlar isə kişilərə də rast gəlirik.*

Arvad, qaynana, qaynata hesabına varlanmaq istəyən, iş quran kişilərin öz həyat yoldaşlarını atıb digər xanımlara üz tutması sayları artdıqca sanki qadınlarımız da kişilərimizdən intiqam almağa başladılar. Onlar boşanma zamanı daha çox kişiyə hücum edir, ona zərbə vurmaq üçün həyat yoldaşının özünün adında olan varidatı, bəzən də qaynana, qaynatada olan evləri onun əlindən almağa çalışır. Bununla da öz hökmranlıqlarını sübut etməyə çalışırlar.

Son illər daha çox Azərbaycanda evlilik zamanı əmlakla bağlı məlumatların yazılı şəkildə notariusda təsdiqlənmiş formada bir-birinə verilməsini təklif etmişdik. Fikirləşirik ki, insanlarımız evliliyə qədər nələri varsa, hətta valideynlərindən varis qala biləcək bir çox əmlakları notariusda təsdiqlədib arayış şəklində bir-birinə ötürə bilərlər ki, hansısa konfliktə girəndə, boşanma hadisəsi baş verəndə bu arayış hər iki tərəfə imkan yaradır ki, məhkəmədə öz mülkiyyət hüquqlarını qorusun.

Daha çox kişilər tərəfindən aldıqları daşınmaz əmlak, varidatın yaxın qohumlarının adına rəsmiləşdirilməsinin təhlükəli tərəfi də var. Bacı, qardaş, xala, əmi, bibi, dayı, onların uşaqları, hətta ata-analar belə sizin əmlakınızı sizə verməyə bilərlər. Başınıza nəsə gələndə, boşanma olmasa belə, uşaqlarınıza, həyat yoldaşınıza o əmlakı verməyə bilərlər. Hər iki tərəfdən belə təhlükəli hal var. Bu addımı atan insanlar düşünməlidirlər".

Onun sözlərinə görə, nikaha daxil olandan sonra qazandığınız əmlakı kimin adına keçirsəniz də, məhkəmə predmeti ola bilər: "Boşanma zamanı hər iki tərəf nikaha girəndən sonra əldə edilmiş ümumi mülkiyyət sayılan varidatı tələb edə bilərlər. Nikaha daxil olmamışdan əvvəl ata-ananın adına nəsə alınıbsa, hazırkı qanunvericilik imkan vermir ki, boşanma zamanı tərəflər həmin əmlaka iddialı olsunlar. Məhkəmə çox zaman bunu nəzərə alıb qərar kimin adına sənədləşdirilibsə daşınan və daşınmaz əmlakı o şəxsdə də saxlayır. Eyni zamanda nəinki əmlakla bağlı, həm də məvacib və əlavə gəlirlərlə bağlı problemlər var. Boşanma zamanı bir var rəsmi məvacib, bir də digər gəlirlər var. İndi qara iqtisadiyyatın bir çox tərəfləri bağlanıb. Hər kəs istər müqavilə, istər xidməti müqavilə, istərsə də digər gəlirləri rəsmiləşdirməyə borcludur. Rəsmiləşdirməyənlər qanun qarşısında cavabdehdir. Onu tapmaq asandır, çünki sistemləşdirilib. Artıq İqtisadiyyat Nazirliyi, Vergilər idarəsində bunlar kompüterə salınıb. Portal vasitəsilə kimin hansı gəlirə malik olması göstərilir. Məhkəmə qərar çıxarsa, məhkəmə predmeti olaraq sübut kimi göstərmək mümkündür. Bu zaman da bir qədər sivilliyə riayət etmək lazımdır. Amma bütün bunlara rəğmən insanlarımız evlənən zaman yalnız əmlak üçün yox, həm də övladları, gələcəkləri, nəslin nüfuzu üçün müəyyən məsələləri düşünməlidirlər. Buna uyğun da hərəkət etməlidirlər. Heç kim özü ilə heç nə aparmır. Əmlak, var-dövlət uğrunda mübarizəyə ömürlərini sərf etməkdənsə, hər şeyi sıfırlayıb təzədən başlamaq, yeni uğurlar qazanmaq daha yaxşı olar".

***Söylü Ağazadə***

## ELAN

**Həsənova Mahirə Dursun qızına məxsus 2024 - cü ildə verilmiş "Şəhid ailəsi statusu " vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**

# Övladımızı telefon asılılığından necə xilas edək?



## PSİXOLOQ FİKRİ

Məlumdur ki, günümüzdə uşaqların əksəriyyəti telefondan asılı vəziyyətdədir. Bəs, bunun qarşısı necə alınmalıdır? Hansı addımlar atılmalıdır? SİA mövzu ilə bağlı psixoloq Zeynəb Eyyubovanın fikirlərini öyrənib. Psixoloq bildirib ki, uşaqların telefon asılılığından xilas olması üçün valideynlər aşağıdakı addımları ata bilərlər:



- Uşaqlar valideynlərini təqlid edir. Əgər siz telefon istifadəsini məhdudlaşdırırsınızsa, onlar da bunu nümunə götürəcəklər.

- Ailə daxilində müəyyən saatlarda telefondan istifadəni tam dayandırmaqla sağlam vərdişlər formalaşdırın.

- Telefon istifadəsi üçün gün ərzində konkret vaxtlar müəyyənləşdirin. Məsələn, yemək zamanı və ya yatağa getmədən bir neçə saat əvvəl telefondan istifadəyə icazə verməmək vacibdir.

- Uşaqların vaxtını daha səmərəli keçirməsi üçün maraqlı alternativlər yaradın. Oyunlar, idman fəaliyyətləri, ailəvi gəzintilər və ya yaradıcı məşğuliyyətlər onların diqqətini telefondan yayındıra bilər.

- Telefonu yaxşı davranışa görə mükafat, ya da pis davranışa görə cəza kimi təqdim etmək asılılığı daha da artırır.

- Əvəzində onların müsbət davranışlarını başqa yollarla dəyərləndirin.

- Uşaqlara telefonun nə üçün istifadə olunacağını, zərərli məzmunlardan uzaq qalmağı və vaxtını necə balanslaşdırmağı öyrədin". Zeynəb Eyyubova sözlərinə belə davam edib: "Uşaqlar bəzən telefona diqqət çatışmazlığı və ya emosional ehtiyaclarını təmin etmək üçün yönəlirlər. Onlarla açıq ünsiyyət qurmaq və onların emosional ehtiyaclarını qarşılamaq çox önəmlidir.

Telefonun həddindən artıq istifadəsinin sağlamlığa və psixoloji vəziyyətə necə təsir etdiyini uşaqlara izah edin. Unutmayın ki, uşaqları telefon asılılığından uzaqlaşdırmaq tədricən həyata keçirilən prosesdir. Valideynlərin dəstəyi, səbrli və ardıcıl yanaşması bu problemin həllində əsas rol oynayır".

***Ayşən Vəli***


Baş redaktor:
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 2700